VÜQAR ƏHMƏD

# İLHAMIM GƏLƏNDƏ...

Bakı – 2003

Ön sözün müəllifi *Məmməd Araz, xalq şairi*

Naşir *Rafiq Xan-Sayadoğlu, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü*

Redaktor *Alim Nəbioğlu, tənqidçi-jurnalist*

**V.Əhməd «İlhamım gələndə…», «Min bir mahnı», Bakı, 2003, 160 səh.**

Kitabda nəğməkar-şair Vüqar Əhmədin Ana, məhəbbət, vətən sevgisi, dövrün, zəmanənin nəbzini vuran yeni şerləri toplanmışdır.

Kitab poeziyasevərlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 9952-29-035-7**

© V.Əhməd
«Min bir mahnı»

## *ÖN SÖZ*

# VÜQAR ƏHMƏDİN ÖZ DEYİM VƏ YAZI DİLİ VAR

Yaradıcılığını izlədiyim qələm, söz sahiblərindən biri də Vüqar Əhməddir. «Gözəl məkan - Nəqşicahan» İstirahət Mərkəzində şairin yaradıcılıq gecəsində iştirakımdan çox məmnunam. Vüqarın təzə şerlərini dinlədim, çox xoşuma gəldi.

O, bizim klassiklərə, yaşlı nəslə mənsub şairlərin yaradıcılığına hər zaman həssas yanaşmış, onların poeziyalarından bəhrələnmiş və poeziyamıza öz töhfələrini vermişdir.

Şerlərini nəğmə üstə yazan şairin öz deyim və yazı dili var, heç kimi təkrarlamır. Vüqar poeziyamızda öz inamlı addımlarını atır. İnanıram ki, Vüqar bundan sonra öz oxucularını təzə-təzə şerləri ilə sevindirəcək və onlara mənəvi zövq verəcək.

***Məmməd Araz,***
*xalq şairi*

***P.S.*** *Bu sözlər xalq şairi Məmməd Arazın «Gözəl məkan - Nəqşicahan» İstirahət Mərkəzində keçirilən Vüqar Əhmədin yaradıcılıq gecəsindəki çıxışından götürülüb.*

*NAŞİRDƏN*

# İLHAMIM GƏLƏNDƏ, İLHAM GƏLƏNDƏ...

Ana... Bu təkçə 2 sait, 1 samit səsin birləşməsindən əmələ gələn söz deyil. Ana bəşərdir, kürreyi-ərzdir, cənnətdir, həyat, sabaha ümudimizdir. Ana atılmaz, anaya biganə qalmaq olmaz. Xəstələnəndə bircə sığalı bəs edər ki,sağalaq. Ümidsizliyə qapananda bircə təsəllisi qəlbimizdə ümid çırağı yandırar. Küskün olanda bircə sözü küskünlüyümüzü unutdurar. Bəlkə ona görədir ki, atalarımız deyib: uşaq anadan yetim qalır. Nə isə... Ana haqqında çox yazmaq olar! Ancaq V. Əhməd...

Nəğməkar şair V. Əhmədcə idal ana obrazı yarandı, bütün anaların ümumiləşmiş bir fenomeni yarandı. Pis yola düşən anaları haqq yoluna qaytardı. Analarını atan oğulları öz anaları ilə barışdırdı. Analar rəhmli olur, övladının hər bir səvhini bağışlayır. Ancaq bəzən biqeyrət oğullar analarını kimli ola-ola kimsəsizlər üçün dövlətimizin ayırdığı Kimsəzizlər evinə atır. Ana da atılarmı, İlahi...?

Yaxşı ki, V.Əhməd «Anam mənim»i yazdı. Çoxlarını ağlatdı, çoxlarına ana varlığını əvəzolunmazlığını, ilahiliyini, əlqatmazlığını sözün gücü ilə aşılaya bildi, ana adına abidə ucaltdı, anaları ucaltdı, analara qarşı olan bigənalik buzunu əritdi. «Anam mənim»i oxuyan hər kəs o, şerdə öz anasını görür. Deməli Vüqar Əhməd öz anasını , sənin ananı, mənim anamı dərindən tanıyır, qəlb çırpıntılarını duyur və yaşadıqları hiss və həyacanı ümumiləşdirərək bizlərə təqdim edir və qəlbimizdə analara olan sevgimizi sonsuz fəzalara doğru aparır və o sonsuzluğun zirvəsində ideal ANA dayanır...

Şer – ilhamdır, əzabdır. Vüqar Əhməddə əzablarla dolu həyatına baxmayaraq ilhamı ilə bacara bilmir. Rastlaşdığı haqsızlıqlar belə onun ilham mənbəyinə mane ola bilmir.

Hər birimizə yaxın olan poeziyasının heyranları kimi o ilhamdan güc alırıq.

İlhamım gələndə coşur qələmim,
Dalğalı dəniz tək çırpının qəlbim,
Şükr edir, Allaha dualı əlim,
İlhamım gələndə, ilham gələndə

Ömründə şən günlərinin az olmasına baxmayaraq, nəğməkar şair pessimizmə qapılmır, sabaha ümidlə baxır və inanır ki, gələn günlər mütləq şən gələcək. Bu ümid , bu sanma bizlərin və qəlbində ümid toxumu səpir və ümid toxumunun cücərəcəyinə inamımımızı artırır.

Şən günləri mən sayıram gəm gəlir,
Sevinc yoxdu, əvəzinə qəm gəlir
Arzularım sərxoş olub dəm gəlir,
Sanıram ki, gələn günlər şən gəlir.

Vüqar Əhmədin qələmi hər birimizə doğmadır. O, ürəyi, o, qələmin hökmünə, gücünə heyran olan bir alim kimi V. Əhməd poeziyasına səcdə edirəm.  Qoy poeziya ilə döyülən ürək heç zaman susmasın, döyünsün.

Yaşamağa odur əsas kərəyim,
Odur mənim həm güvəncim, dirəyim
Ağrıdanda yaman sancır kürəyim
Sirləyimin xəzinəsi ürəyim.

***Rafiq Xan-Sayadoğlu,***
*Nyu-York Elmlər Akademiyasının*
*həqiqi üzvü*

# İZİM QALACAQ VƏ YA OTAYLI BU TAYLI AZƏRBAYCANIN VÜQARI OLAN V.ƏHMƏDİN AZƏRBAYCAN POEZİYASINDAKI SÖZ QALASINA BİR BAXIŞ

Azərbaycan poeziyasında öz ətri, öz nəfəsi, öz sözü olan şairlərimizdən biri də Vüqar Əhməddir. Şerlərini sevə-sevə oxuyub, nəğmələrini heyranlıqla dinlədiyimiz Vüqar Əhməd. Haqq adamı, birəqidəli nəğməkar şairimiz, ədəbiyyatşünas alimimiz, musiqi tədqiqatçımız Vüqar Əhməd…

Məni V. Əhməd yaradıçılığına bağlayan, poeziyasını, söz dünyasını tədqiq etməyə sövq edən nədir?

- *Poeziyasında azərbaycançılığımızın və milliliyimizin qorunması və təbliği.*
- *Vahid Azərbaycan mövzusu, yerlibazlığın olmaması.*
- *Dövlətçiliyimizə sədaqət.*
- *Klassiklərimizin yad olunması.*
- *Şerlərdəki səmimiyyət və rəvanlıq.*
- *Sadə xalq dilinə yaxın deyim.*
- *Təkrarçılığın olmaması.*
- *Səmimiyyət, riyakarlıqdan uzaq obyektiv qələminin hərəkət dinamikası.*
- *Ədəbi dil normalarına riayət.*
- *Leksikonumuza yad sözlərin daxil olunmaması ilə barışmaz mövqe.*
- *Şerlərin nəğmə üstündə köklənməsi.*
- *Bakının Abşeron kəndlərini dərindən tanıma, muğamları duyma qabiliyəti.*
- *Din, İslam dünyası, Qarabağ mövzusunun təbliği.*
- *Ana dilimizin zənglinliklərindən tam və dolğun istifadə.*
- *Qələmin rəqabətə hazırolma mexanizmi.*
- *Qəzəli və əruz vəznini, poetikanı dərindən bilməsi və ondan yerində və dəyərincə istifadə etmə bacarığı.*

Sadaladıqlarımdan bəlli olur ki, Vüqar Əhmədin söz dünyasına sərhəd yoxdur. Vüqar Əhməd söz qarşısında aciz qalmır, o, sözü yox, söz onu tapır, çünki söz qədrini bilənlərə daha yaxın olur, söz öz seçimini edir. Sözün seçimi olan Vüqar Əhməd də həmin sözlərin varlığına tapınaraq söz qapasını yaradır, hasarını çəkir. Ancaq o hasarın bünövrəsinin mayasını musiqi, nəğmə təşkil edir. Əsl azəri musiqisi, milliliyimizə sığınan, muğam üstə köklənən musiqi, nəğmə, elə ona görədir ki, V.Əhmədin sözlərinə bəstələnən mahnılar xalqımızın dilinin əzbərinə çevrilib.

V.Əhməd sağlılığında özünə iz açıb. O, iz hələ neçə-neçə nəsilləri düşündürəcək, neçə-neçə nəsil həmin poeziyanın pərvanəsinə çevrilib öz izləri buraxmağa çalışacaqlar.

***Alim Nəbioğlu,***
*tənqidçi-jurnalist*



# İLHAM GƏLDİ, İLHAM ALDI BU EL-OBA

## İLHAMIM GƏLƏNDƏ

İlhamım gələndə coşur qələmim,
Dalğalı dəniz tək çırpınır qəlbim,
Şükr edir, Allaha dualı əlim,
İlhamım gələndə, ilham gələndə.

Gah nəğmə qoşuram, şer yazıram,
İlhamın gücündən heç nə pozmuram,
Sənətə xidmətə hər vaxt hazıram,
İlhamım gələndə, ilham gələndə.

Qələmim susarsa, günlərim yaman,
Acı söz hər dərddən betərdir, aman!
Hərdən tar çalıram, hərdən də kaman,
İlhamım gələndə, ilham gələndə.

Elmi əsərlər də ilhamdan doğur,
İlham Allah nuru, qəlbimə yağır,
Qələmim çağlayır, şimşək də çaxır,
İlhamım gələndə, ilham gələndə.

Ürəkdən sevinib qəlbən güləndə,
Dərdlərim əriyib sanki öləndə,
Sevinirəm sevinc qapı döyəndə,
İlhamım gələndə, ilham gələndə.

Mənə ilham verən doğma Vətənim,
Allaha sığındım, ona güvəndim,
Səadətdir – mənə ilham verənim,
İlhamım gələndə, ilham gələndə.

El-obaya İlham[1] gəldi, sevindik,
Bu sevincdən biz əl-əlvan geyindik,

---

[1] *Respublika prezidenti nəzərdə tutulur*

Vətən ilə bir ürək tək döyündük,
İlhamım gələndə, ilham gələndə.

Şerimiz qədimdir, şerimiz ulu,
Yazdıqlarım ilhamımın məhsulu,
Vüqar Əhməd xalqın nəğməkar oğlu,
İlhamım gələndə, ilham gələndə.
*5.11.2002-ci il*

## İLHAM GƏLDİ, İLHAM ALDI BU EL-OBA

*(Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev cənablarına ithaf edirəm)*

Görüşündən ilham alır hər insanım,
Səni sevir həm qocalar, həm cavanım,
Ağıl, zəka, hər nə verib yaradanım,
İlham gəldi, ilham aldı bu el-oba,
Müəllimin olub sənin Heydər baba!

Namizədlər arasında sənə yox tay,
Səni sevir Cənub, Şimal, o tay, bu tay.
Şöhrət artır, ay qardaşım hər il, hər ay,
İçməlidir girsə əgər bir su qaba,
Öz ağlınla çatmısan bu şöhrət, ada.

Cavan ikən bir ağsaqqal olacaqsan,
Bir müdrik tək tariximdə qalacaqsan.
Qarabağı bilirəm sən alacaqsan,
Fikir vermə, kim gəzdirsə söz arada,
Heydər oğlu İlham harda - biz orada!

Avropadan gəlir sənin səs-sorağın,
Bərəkətli, düşərlidir əl-ayağın,
Fəqət xalqdır, başqa yoxdur bir marağın,

İdmanımı sən ucaltdın oba-oba,
Atan kimi olacaqsan sən də baba.

Adın gəlsə hamı deyir, ay oğul: - can,
Əməllərin işıqlıdır, ürək açan,
Səni sevir doğma xalqın - Azərbaycan.
İlham gəldi, İlham aldı bu el-oba
Müəllimin olub sənin Heydər baba.
*30.09.2003*

**İLHAM**
*(Milli Olimpiya Komitəsinin Prezidenti*
*İlham Əliyev cənablarına ithaf edirəm)*

Atasından alır gücü, ilhamı,
Hörmət göstərirlər el-oba, hamı,
Bütöv Azərbaycan sevir İlhamı,
Vətənə layiq oğuldur İlham.

Atası tək yalnız yaşayır elçin,
Avropa Şurası-o böyük elçi,
Olimpiyaçıdır, həmdə ki, neftçi,
Vətənə layiq bir oğuldur İlham.

Əlillərin pənahıdır, köməyi,
Qarabağ dərdidir arzu, diləyi.
Çox çalışır, hədər getməz əməyi,
Vətənə layiq bir oğuldur İlham.

Ürəyi rəhmli, görkəmi uca,
Həmişə əl tutar kasıba, aca.
Müəllimi olub müdrik bir qoca,
Vətənə layiq bir oğuldur İlham.

Dahi bir xadimdir babamız Heydər,
Vətənə, millətə o oldu öndər.
Xalqımız, elimiz dualar edər,
Vətənə layiq bir oğuldur İlham.

Toy-bayramdır onun xalqla görüşü,
Qaradağda ürək açır hər işi.
Müjdə verir səfərlərdən gəlişi,
Vətənə layiq bir oğuldur İlham.
*03.02.2000*

**BABADIR**
*(Dünya şöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyev cənablarına ithaf edirəm)*

Vətənə, el-obaya aqil rəhbər – babadır,
Millətə, xalqımıza müdrik rəhbər – babadır.

Ömrünü xalqına sərf eyləyən insan,
Otuz ildi hakimi-dövran babadır.

Ən böyük məhəbbəti tək el-obadır,
Bu dünyada ən gözəl insan babadır.

Gəzdim kürreyi-ərzi, döndüm Vətənə,
Deyirəm ki, Azərbaycan babadır.

Varıdır muğamıma əbədi sevgisi,
«Dilkeş»im, «Segah»ım, tarü-kaman babadır.

İlham tək oğlu var Allah saxlasın,
Onunçün bu dünya, cahan babadır.

Vüqar Əhməd də sevir rəhbərini,
İnandığı təkcə şəxs Heydər babadır.

## MƏNİM QƏLBİMDƏ

*(H.Əliyev cənablarının üyrəyində aparılan cərrahiyyə əməliyyatı zamanı yaşadığım ağrılarım təəssürratı altında)*

Necə nigarandım əməliyyatdan,
Allaha üz tutub dua edirdim.
Rəhbər uzaqdaydı Vətəndən, xalqdan,
Hər bir həyəcanı duya bilirdim.

Bu Vətəni sənsiz görmək çətindi,
İradən poladdı, necə mətindi.
Uca Allahımız ibadətindi,
O mənim ürəyimdi, mənim qəlbimdi.

Qurbanlar deyildi, dua oxundu,
Qəlbinin hər dərdi mənə toxundu.
Şuşada qələbə necə yaxındı,
O mənim ürəyimdi, mənim qəlbimdi.

Bu qəlb yorulmuşdu Vətən yolunda,
Sevil sağındadı, İlham solunda.
O gün olsun Heydər babam, Heydərin,
Oynayasan Arzu, Leyla toyunda.

Həsrətdə gəl qoyma Kürü, Arazı,
Vətən oğulları, hər bir el qızı.
Vüqar Əhməd yazdı şəninə yazı,
O mənim ürəyimdi, mənim qəlbimdi.

Vətən dərdlərindən yorulan ürək,
Həmişə Vətənə gərəksən, gərək.
Necə də şərəfdir sənə «can» - demək,
O mənim ürəyimdi, mənim qəlbimdi.

## VÜQARLI RƏHBƏRİM

Diqqətin əbədidir,
Şer-sənət dilinə.
Şan-şöhrət gətirmisən
Azərbaycan elinə.

Adın millətlə qoşa,
Verdin xalqla baş-başa.
Deyirəm yüz il yaşa!
Ey vüqarlı rəhbərim.

Xoş açılan sabahım,
Ümidimsən, pənahım.
Hifz eləsin Allahım,
Ey vüqarlı rəhbərim.

Xalqın verib qiyməti,
Çox çəkirsən zəhməti,
Qələmə sövq edirsən,
Şair Vüqar Əhmədi.

İradən polad kimi,
Həyat yolların mətin,
Böyük oğlu sən oldun,
Doğma, əziz millətin.

# BİLMƏM ÖMRÜN SONU, YA DAVAMIDIR…

## ALLAH ADAMI
*(40 yaşıma)*

Kiminin ilidir, kiminin qırxı,
Yaş gəlib yetişdi, haqladım qırxı,
İllər uçan quşdu, sanki bir qırğı,
Bilməm ömrün sonu, ya davamıdır,
Bu qələm sahibi haqq adamıdır.
Yaşanan bu qırx il bəlkə yuxudur,
Qorxum Allah xofu - olan qorxudur,
Gözlərim qəlbimə yaşlar axıdır,
Bilməm ömrün sonu, ya davamıdır,
Sənət yollarında zəhər bal dadır.

Doğuldum Bakıda, qədim məhlədə,
Bir məna axtardım mən hər kəlmədə,
Fərq qoymam, yerliyə ya da gəlməyə,
Bilməm ömrün sonu, ya davamıdır,
Bilən bilir, Vüqar haqq adamıdır.

Yaxşılığı peşə bildim özümə,
Doğma xalqım qiymət verdi sözümə,
Dünya malı görünmədi gözümə,
Bilməm ömrün sonu, ya davamıdır,
Hünər mənə yalan deyib aldadır.

Heyran qaldım öz-özümdə dözümə,
Zülmət, günlər düşdü mənim izimə,
Səhv edəndə əl çırpmadım dizimə,
Bilməm ömrün sonu, ya davamıdır,
Nə yaxşı ki, təbim coşur, yaradır.

Mən gülsəm də göz yaşlarım yanaqda,
Əsəblərim çeynədiyim dodaqda,
Sevincim dəyməyib qalıb budaqda,

Bilməm ömrün sonu, ya davamıdır,
Səadət Allahın bir savabıdır.

Yox olaydı Allah dərd-acılarım,
Gün görə həm qardaş, həm bacılarım,
Anamdır - əbədi ehtiyaclarım.
Bilməm ömrün sonu, ya davamıdır,
Anam mənim - hər balaya anadır.
Xoşbəxt ola oğlum, qızım, anası,
Fəqət onlar hər dərdimin çarası,
Ucaltmışam, mən məhəbbət qalası,
Bilməm ömrün sonu, ya davamıdır,
Məni, bilin məhəbbətim yaşayır.

Yazım-pozum Allah verən ilhamım,
Sevincim az, yollarımda var ahım,
Hifz eləyir məni Rəbbim, pənahım,
Bilməm ömrün sonu, ya davamıdır,
Xəyallarım sanki tənha adadır,

Bəyənmirsə kimsə məni səhv edir,
Naxələflər sevincimə qəsd edir,
Sevənlərin alqışları məst edir,
Bilməm ömrün sonu, ya davamıdır,
Qələmim, ömrümün cah-calalıdır.

Nəğmələrdə qalıb izim, ləpirim,
Vətənimi vəsf eləyir hər sətrim,
Şer gülşənində vardır öz ətrim,
Bilməm ömrün sonu, ya davamıdır,
Sənət yollarımız çox bəlalıdır.

Sayana bir qulam, saymaza ağa,
Ehtiram göstərrəm hər vaxt qonağa,
İtirdiklərim başa sadağa,

Bilməm ömrün sonu, ya davamıdır,
Qazancım deyirlər: - xoş halalındır.

Paxılların ürəkləri partlayır,
Xainlərin qara qəlbi çatlayır,
Bədnəzərlər addımlayır, artmayır,
Bilməm ömrün sonu, ya davamıdır,
Vicdan, hər insanın xoş amalıdır.

Azərbaycan — məmləkətim, Vətənim,
Bir nəğmədi layla deyən bu dilim,
Bilməm ömrün sonu, ya davamıdır,
Nəğməkar şairin haqq-salamıdır.

Dayım yox, əmim yox, çəkdim zəhməti,
Xalqım verdi mənə qədir-qiyməti,
Unutmaz bu millət Vüqar Əhmədi,
Bilməm ömrün sonu, ya davamıdır,
Bu qələm sahibi haqq adamıdır.

## ÜRƏYİM

*(Dostum, qardaşım, polkovnik Rəcəb Məmmədova ithaf edirəm)*

Yaşamağa odur əsas gərəyim,
Odur mənim həm güvəncim, dirəyim.
Ağrıyanda yaman sancır kürəyim,
Sirlərimin xəzinəsi ürəyim.

Gecə-gündüz məhəbbətlə döyünür,
Yaxşılığı o görəndə öyünür.
Ağrıyanda zəhrimar tək söyülür,
Susanda da gəlir səsi, ürəyim.

Məhəbbətdir hər ürəyin dərmanı,
Bihuş edir eşqin dadı insanı.
Mənim sevgim tutub bütün dünyanı,
Necə sevir o hər kəsi, ürəyim.

Sakinidir ürəyimin yaxşılar,
Hər ürəyin bir taleyi, naxşı var.
Dərd-kədərdən qəlbə düşür naxışlar,
Şükürlər ki, var nəfəsi, ürəyim.

Dünya boyda o dərd çəkir, qəm çəkir,
Gəlsə əcəl bu dünyadan əl çəkir.
Lal fəryadla gözlərindən yaş tökür,
Yox gündüzü, yox gecəsi, ürəyim.

Təbiblərə ehtiyacı yox onun,
Bir loğmandı yaxın qoymur qorxunu.
Özü bilir "ölüm" adlı yuxunu,
Sirlərimin xəzinəsi ürəyim.
*18.01.2003*

**QOCAMAN**
*(Mənəvi dayağım, millət vəkili Hacı Madər Musayevə ithaf edirəm)*

Taleyimi xəyalımda yazıram,
Yollarımı yaman tez-tez sezirəm,
Kədərlənsəm, sanki məzar qazıram,
Cavan ikən oldum sanki qocaman.

Röyaları xeyirliyə yozuram,
Pis günləri taleyimdən pozuram,
Yaxşılığa gecə-gündüz hazıram,
Cavan ikən oldum sanki qocaman.

Saçlar qara, mən sayıldım ağ-saqqal,
Ey Allahım nə tacirəm, nə baqqal,
Hər günümdə necə çoxdur qalmaqal,
Cavan ikən oldum sanki qocaman.

Üzüm gülər gözlərimsə pərişan,
Dostum yoxdu olum ona yaraşan,
Arzulardır mənim ilə danışan,
Cavan ikən oldum sanki qocaman.

Bir söyləyin sevinəcəm mən haçan,
Niyə yoxdur bəxtimizi bir açan,
Çox xoşbəxtdim nə vaxt ki, dərsdən qaçan,
Cavan ikən oldum sanki qocaman.

Gözəllərin gözü qalır gözümdə,
Ağıllının fikri qalır üzümdə,
Axır vaxtlar heç olmuram özümdə,
Cavan ikən oldum sanki qocaman.

Allah verən ruzilərlə dolandım,
Şirin-şəkər arzularla oyandım,
Düşmənlərlə cangəvər tək dayandım,
Cavan ikən oldum sanki qocaman.

Şəfa yoxdur səhhətimdə, canımda,
Sədaqət var vücudumda, qanımda,
Öyünmədim şöhrətlə, ad-sanımla,
Cavan ikən oldum sanki qocaman.

Dünya yalan, yalan dünya yamandı,
Xətalardan özün gözlə amandı,
Yollarımız yenə necə dumandı,
Cavan ikən oldum sanki qocaman.

Mən torpağda doğulmuşam, olmuşam,
Cücərmişəm, boy atmışam, solmuşam,
Dərdli görsəm ağlamışam, dolmuşam,
Cavan ikən oldum sanki qocaman!

Yağan yağış kaş qəlbimə yağaydı,
Taleyimdə sanki günəş doğaydı,
Vaxt var idi Vüqar Əhməd ağaydı,
Cavan ikən sanki oldum qocaman.
*9.12.2002*

**HƏQİQƏT**
*(Dostum, qardaşım, muğamımızın cəfakeşi maliyyəçi Füzuli Nəcəfova  ithaf edirəm)*

Kasıba da Allah ruzi yetirir,
Dövlətliyə varı bəla gətirir,
Acgözlər də vaxt gəlir ki, itirir,
Səbr eləyin, bu sözlərim həqiqət.

Güc eləyir, gec eləyir  Allahım,
Dua etdim xoş açılsın sabahım,
Salamatlıq, başqa yoxdur tamahım,
Səbr eləyin, bu sözlərim həqiqət.

Gəzdirməyin özünüzlə cangüdən,
Allahımdı həm xəlq edən, öldürən,
Qəlbim duyur gələcəyi indidən,
Səbr eləyin, bu sözlərim həqiqət.

Bir qazancda çoxlarının var gözü,
Dərd çəkənin deməyə də yox heç sözü,
Ocaq sönüb işıldayır var gözü,
Səbr eləyin, bu sözlərim həqiqət.

Şöhrətliyə edirlər çox xəyanət,
Xeyirxahlıq niyə olur qəbahət,
Ticarətdən seçilməyir təbabət,
Səbr eləyin, bu sözlərim həqiqət.

Mal yığan da düşüb bu cür azara,
Yığdıqları yerləşərmi məzara,
Məmləkətim dönüb qara bazara,
Səbr eləyin, bu sözlərim həqiqət.

Çox çalışdım, bu qaysağı qopardım,
Dedim bəlkə bir səadət tapardım,
Qəlbim təndir, ora məlhəm yapardım,
Səbr eləyin, bu sözlərim həqiqət.

Naxaləflər qəfil vurur zərbəni,
Salır qəlbə parçalayan qəlpəni,
Dağ sayırlar lap dərəni-təpəni,
Səbr eləyin, bu sözlərim həqiqət.

Qəmli gördüm neçə nazlı afəti,
Taleyindən alıb ağır töhməti,
Yoxsul gördüm neçə-neçə külfəti,
Səbr eləyin, bu sözlərim həqiqət.

Nə yaxşı ki, ürəkdə var məhəbbət,
Xəyallarım yenə edir səyahət,
Adda Vüqar, təxəllüsdə mən Əhməd,
Səbr eləyin, bu sözlərim həqiqət.
*23.01.2003*

**YAŞIN MÜBARƏK!**
*(Xeyriyyəçi dostum Məhəmməd Rəhimova ithaf edirəm)*

Kəndin Qanlı təpə, əslin Göyçəli,
Sən uca tutursan xeyir əməli,
Sənə kömək olsun Həzrəti Əli,
Məhəmməd qardaşım, yaşın mübarək!

Səmayə anamız dindar-Hacıdır,
Məhəmməd kasıbın ehtiyacıdır,
Şəmitdin kişinin övlad tacıdır,
Məhəmməd qardaşım, yaşın mübarək!

Xəz-dəridən kürk geyəndə gözəldi,
Sənin üçün Aşıq Alı əzəldi,
Mənim bu qardaşım bir az dəcəldi,
Məhəmməd qardaşım, yaşın mübarək!

Sənə arxa durur Aqil babalar,
Gözünə işıqdır doğma balalar,
Süd-qatıq içəndə göz işıqlanır,
Məhəmməd qardaşım, yaşın mübarək!

Hamı sevir mənim dostum Məmmədi,
Dostlar üçün yaman çəkir zəhməti,
Özünə qardaş say Vüqar Əhmədi,
Məhəmməd qardaşım, yaşın mübarək!

**AY USTAD**
*(AMEA-nın müxbir üzvü Vasim Məmmədəliyevə ithaf edirəm)*

Sənin istedadın möcüzə, tilsim,
Quranı tərcümə sən etdin, Vasim.
Şərqşünaslıqda da sənsən sarı sim,
Altmış yaşın mübarəkdir, ay ustad!

Kürdəxanı kəndi sənlə öyünər,
Şərqşünaslar fəqət sənə güvənər,
Görmə ay qardaşım nə qəm, nə kədər.
Altmış yaşın mübarəkdir, ay ustad!

Ürəkdən bağlısan İslam dininə,
Şan-şöhrət gətirdin doğma elinə.
Vaqifsən lap qədim ərəb dilinə,
Altmış yaşın mübarəkdir, ay ustad!

Məşədisən, Kəbleyisən, Hacısan,
Məmləkətdə hacıların tacısan.
Muğamatın sirlərini açırsan.
Altmış yaşın mübarəkdir, ay ustad!

Alimlikdə, savadında yox qələt,
Dostlarındı Həcc Ağaxan, Həcc Tələt,
Vüqar Əhməd şeri sənə bir xələt,
Altmış yaşın mübarəkdir, ay ustad!

## KAMANÇA ÇALINANDA

*(Respublikanın əməkdar artisti, mərhum kaman ustası Ədalət Vəzirovun ruhuna ithaf edirəm)*

Gəldi ölüm röyası,
Vətəndən uzaqlarda.
Dəyişmişdi dünyası,
Gözyaşı yanaqlarda.

Türkiyə də vətəndi,
Amma yenə qürbətdi,
Dahilərdə o təndi,
Onun yeri cənnətdi.

Çox güclü biləngi,
Şirindi hər ahəngi.
Hördü muğam çələngi,
Kamança çalınanda.

Xəyallar səyahətdə,
Əllərim itaətdə,
Qulağım Ədalətdə,
Kamança çalınanda.

Ustaddı, şöhrətliydi,
El içrə hörmətliydi,
Tarzəni Ağasəlim,
Firuz, Zamiq, Möhlətiydi.

Həm ağaya, həm xana,
Tar çaldı Ağaxana,
Çalırdı Arif üçün,
Xalq üçün, eli üçün.

Dərdlərə tənha dözdü.
İnanmıram o bezdi.
Sənətlə dünya gəzdi,
Kamança çalınanda.

Barmağın titrəməsi,
Simlərin ah-naləsi,
Vardı onun öz səsi,
Kamança çalınanda.

Sənətdə Kamil idi,
Ustadı Habil idi,
Sanki fəqan edirdi,
Kamança çalınanda.

Vardı 51 yaşın,
Üç balan gözüyaşlı,
Atan, anan yanaşı,
Yatır sənlə məzarda.

Bir kəs deməz acıydın,
Yaxşılığın acıydın,
Bir mömindin, Hacıydın,
Ay Ədalət qardaşım.

Ağlar Xızıda dağlar,
Göy kişnər, bulud ağlar
Qürbətdə qərib ölüb,
El-oba hamı ağlar.

Əzizinəm çən gələ,
Duman gələ, çən gələ,
Vallah, heç nə görmədim
Muğamata tən gələ.

Çox çəkmişdin zəhməti,
Uca idi sənətin,
Gözü yaşlı qoymusan
Dostun Vüqar Əhmədi.

Qalan qaldı, nə dərdi,
Vay ölənin halına.
Sənə dahi deyərdim,
Kamança çalınanda.

**MÜĞAMIMIZ FƏXR EYLƏYİR TƏLƏTLƏ**
*(Görkəmli muğam üstası, xanəndə Hacı Tələt Qasımovaithaf edirəm)*

Naz eləyən neçə Dəli ceyranı,
Fayton sürən bəxti qara cavanı,
Gözəllərə dedi: - «Allam qadanı»,
Qazanmısan sən hörməti sənətlə,
Dostlar hamı, fəxr eyləyir Tələtlə.

Muğamatım yatır sənin sinəndə,
Dürr tökülür danışanda, dinəndə.
Heç görmədim sən özünü öyəndə,
Toy oxudun, evə gəldin xələtlə,
Məclislərin çoxu keçir Tələtlə.

Yaponda da sən qazandın alqışı,
Ziyarətdə öpüb qucdun hər daşı,
Üzdən sənə heç kəs verməz bu yaşı,
Yaşamısan öz ömrünü şöhrətlə,
İşin yoxdur səhv söz ilə, qələtlə.

Firuz vursa sarı simi, ağ simi,
Yetirməndir, sən bilirsən tilsimi,

Əziz tutdun böyük alim Vasimi,
Sevilirsən sədaqət tək cəhətlə,
Tanıyarsız, yol getsəniz Tələtlə.

Heykəl qoydun «Şüştər»dəki «Tərkibə»,
Ağı dedin dərd daşıyan qəlbimə,
Evdə yoxsan, axtaranda hər cümə,
Mərhuma da baş çəkirsən hörmətlə,
«Niva»lar da dəbə düşüb Tələtlə.

70 ildir sən çəkirsən zəhməti,
Azərbaycan sevir Hacı Tələti,
Vüqar Əhməd verdi sənə qiyməti,
Qazanmısan sən hörməti sənətlə,
Muğamımız fəxr eləyir Tələtlə.

**SƏNƏTİN DƏ KAMİL, ADIN DA KAMİL**
*(Xalq artisti, məşhur qoboyçalan Kamil Cəlilova ithaf edirəm)*

Vətənə məhəbbət ən böyük amil,
Çalğına heyrandır həm Muğan, həm Mil,
Buzovna yetirib səni, ay Kamil,
Sənətin də kamil, adın da Kamil.

Qoboyu Vətəndə sən ucaltmısan,
Özünü bu yolda çox qocaltmısan,
Ürəyin nə istər, xalqdın almısan,
Şöhrətin də kamil, adın da Kamil.

«Şirvan şikəstəsi», həm «Baş sarıtel»,
Saz havası çaldın səni sevdi el,
Şəhidlərə çaldın, qəlbimiz tel-tel,
Qismətin də kamil, özün də Kamil.

«Kən'ani» çalanda oyun oynadıq,
Qoboyun səsindən heç vaxt doymadıq,
Özgə musiqiyə məhəl qoymadıq,
İzzətin də kamil, özün də Kamil.

«Segah»ın dinəndə deyirsən: «oy, oy»,
Necə yanıqlıdır qəmlidir qoboy,
Hələ çalacaqsan neçə-neçə toy,
Sənətin də kamil, adın da Kamil.
*26.05.2002*

ARİF MƏMMƏDOV – 50

Adın Arif, özün Arif, sən Arif,
Şəninə yaraşır hər cürə tərif,
Şerimlə edirəm mən səni təltif,
Əlli yaşın mübarəkdir, ay Arif!

Yolunda ötən il əsdi gilavar,
Həyatın yolları düzülüb hamar,
Sənə arxa durur Babək, Didivar,
Əlli yaşın mübarəkdir, ay Arif!

Fərid, Fariz, Fazil oğullarındı,
Şirinin, şərbətin, noğullarındı,
Zeynəb xanım deyir: dayağlarımdı,
Əlli yaşın mübarəkdir, ay Arif!

Üç ali təhsilin mükəmməl, səlis,
Hüquqçu, gəmiçi, həm də mühəndis,
Doktorluq diplomun əsildi, xalis,
Əlli yaşın mübarəkdir, ay Arif!

Xəzər sularının «admiralısan»,
Soruşmuram qardaş, sən haralısan,

Ləhçəndən bilirəm naxçıvanlısan,
Əlli yaşın mübarəkdir, ay Arif!

Ömür boyu Arif sevib zəhməti,
Ekoqenergetiklər verib qiyməti,
Qələmə sövq etdin Vüqar Əhmədi,
Əlli yaşın mübarəkdir, ay Arif!

## YAĞIŞLAR

*(Əməkdar incəsənət xadimi Həsənağa Qurbanova ithaf edirəm)*

Leysan yağan, narın yağan yağışlar,
Dikilibdir sənə məsum baxışlar,
Bu yağışlar mənə dünya bağışlar,
Yağ ey yağış, qəlbimə yağ, yuyulsun.

Qəlbimə yağ yu qəlbimdən qubarı,
Qəlbə yağan yağışların nübarı,
Bircə yuma qəlbimdəki Vüqarı,
Yağ ey yağış, qəlbimə yağ, yuyulsun.

Dərdlərimi, niskilləri yu apar,
Əzabları, yaraları gəl qopar,
Bundan sonra bu taleyim gün tapar,
Yağ ey yağış, qəlbimə yağ, yuyulsun.

Amma yuma qəlbdən Vətən eşqini,
Yaxınlara məhəbbəti, eşqimi,
Bu sönməyən ilhamımı, eşqimi,
Yağ ey yağış, qəlbimə yağ, yuyulsun.

Mənim qəmim deyil ani, ötəri,
Qəlbimdən yu əzab verən kədəri,

İllər bilir mən içdiyim zəhəri,
Yağ ey yağış, qəlbimə yağ, yuyulsun.

Çətin günlər ürəklərdən yuyulsun,
Bütün qəlblər aydan duru pak olsun,
Təmizlərə Vüqar adı qoyulsun,
Yağ ey yağış, qəlbimə yağ,yuyulsun.

**KİRVƏLƏR**
*(Dostum, oğlum Hüseynin kirvəsi Bahəddin Sultanova ithaf edirəm)*

Xonçalarda noğul, şəkər, nabatdı,
Süfrələrdə şirni üstə badamdı,
Müsəlmanda o ən əziz adamdı,
Kirvələr, kirvələr, əziz kirvələr.

Bahəddin bəy Hüseynimin kirvəsi,
Dopdoludur kirvəmizin süfrəsi,
Məclislərdə kirvəmin var öz səsi,
Kirvələr, kirvələr, əziz kirvələr.

Kirvəmizin sözü qanun hamıya,
Kirvə taydır həm əmiyə, dayıya,
Bir bayramdı kirvə gəlsə qapıya,
Kirvələr, kirvələr, əziz kirvələr.

Çox əzizdi əziz kirvəm bizlərə,
Qulaq asdıq kirvə deyən sözlərə,
Kirvəm, gəlmə, bədnəzərli gözlərə,
Kirvələr, kirvələr, əziz kirvələr.

Xeyir verər ülgüc tutan dəlləyə,
Şirni paylar əqrəbayə hərəyə,
Kirvə gələr çətin gündə gərəyə,
Kirvələr, kirvələr, kirvələr.

## APARDI DALĞALAR MƏNİM BALAMI

*(Dostum Bahəddinin qızına ithaf edirəm)*

Dəniz aldı Sürəyyanı əlimdən,
Gecə-gündüz adı düşmür dilimdən.
Allah, niyə ayrı düşdüm gülümdən,
Apardı dalğalar mənim balamı.

Pərişan gözlərim səni gözləyir,
Bu bala dərdinə ürək dözməyir.
Gözlərim ağlayır, qəlbim sızlayır
Apardı dalğalar mənim balamı.

Səkkiz ayın gəliniydi qızcığaz,
Deyərdim: qızımdan dünyada olmaz.
Bu yaralı könlüm heç vaxt sağalmaz,
Apardı dalğalar mənim balamı.

Gəlsə əcəl, verməz macal neyləyim,
Ürəyimdən keçir, ancaq ölməyim.
Necə olsun, gəlib sənə dəyməyim?
Apardı dalğalar mənim balamı.

Anan Nəcibənin bitibdir sözü,
Bacın Terezanın ağlayır gözü.
Atan Bahəddinin puç olub özü,
Apardı dalğalar mənim balamı.

İntiqam, Abdulla qardaşların da
Sənə matəm turur soydaşların da
Busələr görünür başdaşlarında
Apardı dalğalar mənim balamı.

Sevirdim Xəzəri, göy dənizimi,
Əlimdən aldı o, ən əzizimi.

Sahildə görməzsiz ayaq izimi,
Apardı dalğalar mənim balamı.

Lal fəryad içimi doğrayır, didir
Xəyalım qızımın yanına gedir
Taleyim gör necə mənə qəsd edir
Apardı dalğalar mənim balamı.

Lay-lay, mənim balam,lay-lay a quzum
Dünya gözəliydi sürəyya qızım
İndi sənsiz bilsən təkəm, yalqızam
Apardı dalğalar mənim balamı.

Allah sevdiyini vaxtsız aparır,
Cənnətdə onlara bir məskən tapır.
Sürəyya evdə yox, məzarda yatır,
Apardı dalğalar mənim balamı.

A KNYAZ
*(Həmyerlimiz, Abay adına Alma-ata Dövlət Universite-tinin prorektoru, filologiya elmləri doktoru, professor, akademik Knyaz Mirzəyevə ithaf edirəm)*

Sən gedəndən qar-borandı, gələr yaz,
Şöhrətindən gəlir bizə xoş avaz,
Ürək deyir, qələm deyir şer yaz,
Bu şərqimi sənə yazdım, a Knyaz.

Bizim üçün yaxın oldu uzaqlar,
Bu əllərim səni eşqlə qucaqlar,
Səni sevir türklər, kürdlər, qazaxlar,
Bu şərqimi sənə yazdım, a Knyaz.

Ala gözlər sanki mavi dənizdi,
Hər gəlişin Bahəddinə əzizdi,

Söhbətlərin necə şirin, ləzizdi,
Bu şərqimi sənə yazdım, a Knyaz.

Dostun Əli gəlişinlə sevindi,
Qohum-qardaş sənin ilə öyündü,
"Cəlalilər" sənin doğma elindi,
Bu şərqimi sənə yazdım, a Knyaz.

Arzumanlı Vaqif bəyin sirdaşı,
Rəcəb bildi səni doğma qardaşı,
Nursultanın sənsən dostu, yoldaşı,
Bu şərqimi sənə yazdım, a Knyaz.

Qazaxların ordenini almısan,
Nazarbayla sanki qardaş olmusan,
Bu milləti çünki doğma sanmısan,
Bu şərqimi sənə yazdım, a Knyaz.

Arzuların sanki quşdu, Göyərçin,
Övladların bir dayaqdı səninçin,
Nəyin varsa yaratmısan el üçün,
Bu şərqimi sənə yazdım, a Knyaz.

İrəvanda çox çəkmişdin zəhməti,
Soydaşların verir sənə qiyməti,
Qələmə sövq etdin Vüqar Əhmədi,
Bu şərqimi sənə yazdım, a Knyaz.
*2 yanvar 2003-cü il*

## İZİM QALACAQ

*(Sevimli müğənnimiz Brilliant Dadaşovaya ithaf edirəm)*

Məhəbbətimlə, sədaqətimlə,
Mətanətimlə, məlahətimlə
Səsim qalacaq, sözüm qalacaq,
Ürəklərdə izim qalacaq.

Elin dilində, şanlı günlərdə,
Xatirələrdə, mavi röyada,
Bayatılarda səsim qalacaq,
Könüllərdə izim qalacaq.

Şirin avazım, sözlərim, yazım,
Nəğməli sazım, işvəli nazım
Göydə, həm yerdə, düyünlü sirrdə,
Bu ellərdə izim qalacaq.

Mən sənətkaram, ləli atmaram,
Parlayıram dürrlü dünyada.
Lap uzaqlarda, göy səmalarda,
Bu dünyada izim qalacaq.

Etibarlıyam, kökə bağlıyam,
Çox Vüqarlıyam, xoş avazlıyam.
Hər bir misrada sözüm qalacaq,
Ürəklərdə izim qalacaq.

Şəffaf bulaqda, nəmli yanaqda,
Doğma torpaqda izim qalacaq.
Təbriz, Zəncanda-Azərbaycanda,
Bu diyarda sözüm qalacaq.

## ƏHSƏN…
*(Respublikamızın əməkdar artisti*
*Nazpəri Dostəliyevaya ithaf edirəm)*

Şərqin nəğmələri qəlbimə məlhəm,
Şirin nəğmələri duymaya bilməm,
Burda vəhdət tapır həm sevgi, həm qəm,
Xənəndə zəngulə vurarsa əhsən,
Tarın mizrabına, kamana əhsən.

Udda çalınanda şur ahəngləri,
Muğamdan hörülür qəm çələngləri,
Uşaqlar uçurur çərpələngləri,
Neyin, balabanın səsinə əhsən,
Muğamın zilinə, pəsinə əhsən.

Şer nəğmələrdə əbədiləşir,
Dərvişanə ifa qəlbimi deşir,
Gözümdə bu dünya çox gözəlləşir,
Nazlı pərilərin qəlbinə əhsən,
Məlahətli səsin sehrinə əhsən.

Təranə dinəndə dincəlirəm mən,
- «Nə gözəl», bir daha dillənirəm mən,
Muğamı  yetirən bu xalqa əhsən,
Vüqar Əhməd üçün sənətə əhsən.

## AY ELTAC BALA
*(H.Səfərlinin nəvəsi Eltaca ithaf edirəm)*

Şahmat sənin üçün zəngin Səltənət,
İdmanla dünyanı etdin səyahət,
Səndən çox sevinir baban Hidayət,
Nə gözəl balasan, ay Eltac bala.

Suyundan içmisən dərdli Arazın,
Müjdəsi olmusan çiçəkli yazın,
Çəkirlər ay bala, hər cürə nazın,
Nə gözəl balasan, ay Eltac bala.

Şahmatda hər uduş xoş bir xəbərdi.
Arzular nə boldu, dünya qədərdi,
Sağ olsa deyərdi İslam Səfərli:
- Nə gözəl balasan, ay Eltac bala.

Nənənin, babanın başının tacı,
Gənc şahmatçıların sən ehtiyacı,
Heydər babamız da sevir Eltacı,
Nə gözəl balasan, ay Eltac bala.

**SEVMƏYƏN YOX GÖVHƏRİ**
*(Gözəl sənətkarımız Gövhər Rzayevaya ithaf edirəm)*

Bir nazənin, bir pəri,
Muğam-ləli, gövhəri.
Qarmon onun dilbəri,
Sevməyən yox Gövhəri.

Çox sevdi bu aləti,
Qarmon oldu qisməti,
Gövhər tapdı şöhrəti,
Sevməyən yox Gövhəri.

O şirmayi dillərə
Vaqif oldu sirlərə,
Alqış aldı min kərə,
Sevməyən yox Gövhəri.

Qarmonu Leylasıdır,
Şirin bir sevdasıdır,

O da bir balasıdır,
Sevməyən yox Gövhəri.

Bal kimi şirin dinir
Qarmonunda hər dili,
Qızların Avtandili,
Sevməyən yox Gövhəri.

Teyyub Dəmir bir Dədə,
Qızxanıma, Əhədə
Qulaq asıb hər vədə,
Sevməyən yox Gövhəri.

Çox çəkmisən zəhməti,
Almamısan qiyməti,
Dinlə Vüqar Əhmədi,
Sevməyən yox Gövhəri.
*5.10.2003*

**50 YAŞIN MÜBARƏK!**
*(Bir sinfin məzunlarına)*

Bir torpaqda, eyni kənddə doğulduq,
Namuslu qız, həm də igid oğulduq,
Bu gün yenə o vaxtkı tək bir olduq,
50 yaşın mübarəkdi, a dostum!

Bir oxuduq, bir məktəbi bitirdik,
Bu gün bura xatirələr gətirdik,
Uşaqlardan bir Sevdanı içirdik,
50 yaşın mübarəkdi, a dostum!

Kimi nənə, kimi ata-babadır,
Arzularım sahilsiz bir adadır,

Nəvə dadı bir şərbətdi bal dadır,
50 yaşın mübarəkdi, a dostum!

Aylar, illər bizi yaman aldadır,
Fikirimiz həm bəyaz, həm qaradır,
Bu dünyanın sonu görən haradır,
50 yaşın mübarəkdi, a dostum!

Sanmayın ki, mən ürəkdən gülürəm,
Mən çəkəni hamı çəkir - bilirəm.
Xəyalımda sinifləri gəzirəm,
50 yaşın mübarəkdi, a dostum!

Sinif yoldaşlarım ən əziz kəsim,
Lövhə qarşısında gur idi səsim,
Məktəbdə yarandı kitab həvəsim,
50 yaşın mübarəkdi, a dostum!

Arzum idi layiq olaq Vətənə,
Könül verək bizi qəlbən sevənə,
Xatirələr yada düşdü yenə də,
50 yaşın mübarəkdi, a dostum!

Gəlin, dostlar, şənlik edək el dəbi,
Coşdu yenə Vüqar Əhmədin təbi,
Xatırlayaq biz oxuyan məktəbi,
50 yaşın mübarəkdi, a dostum!
*18.04.2002*

## ARZULARIM ÇOXDUR HƏLƏ

*(Bakı Texniki Kollecinin tələbəsi Elçin Qəniyevə ithaf edirəm)*

Yol gedirəm,qalır izim,
Bu izlər gecəm-gündüzüm.
Bükülmə, büdrəmə, dizim!
Arzularım çoxdur hələ.

Çox arzuda gözüm qalır,
Yəqin belə məsləhətmiş.
Şükr edirəm, sözüm çatır,
Arzularım çoxdur hələ.

Cücərməyən arzulara,
Yetişməyən arzulara.
Taleyimdə yazılara,
Görən çoxmu vardır hələ?

Səadətin işıltısı,
Xoş günlərin parıltısı.
Firavanlıq uğultusu,
Yaxın, uzaq bilməm hələ.
*28.06.2003*

## HÜSEYN, ALMA-BİR ALMA

*(Övladlarım Hüseyn və Almaxanıma ithaf edirəm)*

Bir bacıdır, bir qardaş,
Həm doğma, həm də sirdaş.
Oğlan Hüseyn, qız Alma,
Sanki onlar bir alma.
Hüseyn çox ağlağandı,
Alma da yatağandı.
Onlar qumda oynayır,

Oyunlardan doymayır.
Gəlir Xəzərin səsi,
Artır çimmək həvəsi.
Külək qalxır, qoymayır
Toz içində çöl, bayır
Hüseyn dedi:-ay Ana,
Nolar, gedək dənizə
Ana dedi: - küləkdir,
Evdə olmaq gərəkdir,
İndi dəniz əzazil
Orda çimən nə gəzir?
Alma dedi neyləyək?
Gəlin evdə şənlənək
İlbiz yığaq, toplayaq
Bir oyun var bu sayaq.
İlbiz yerin sırğası,
Gəl oynayaq «Qığılası»,
Gəl oynayaq «Gizlənpaç»
Gözləyim gözünü aç.
Hüseyn çıxdı palmaya,
Dedi kiçik Almaya.
Dəniz görünür bacı,
Mənə baxır qıyqacı.
Alma dedi baxım mən,
Ora necə çıxım mən.
Ata, qaldır oraya,
Baxım Günəşə, Aya
O, qaldırdı Almanı,
Fəth elədi palmanı
Hüseyn dedi:-Ay nənə,
Dənizi gördüm yenə.
Dəniz mavi dənizdi,
O doğmadı, əzizdi.
Ana dedi gör dəniz,
Necə coşub, daşırdı.

Güclü Xəzri əsəndə,
Dəniz özü çaşırdı.
Televizor da dedi,
Hava yaxşı olacaq.
Sabah atan evdədi,
Gündüz bizlə olacaq.
Dənizə gedəcəyik,
Doyunca çiməcəyik.
Qum üstə ayaqyalın,
Piyada gəzəcəyik.
Hüseyn, Alma sevindi,
Təzə paltar geyindi.
Bacı, qardaş öyündü,
Sevindi bağda hamı,
Gəldi şair ilhamı
Vüqar Əhməd bu şeri,
Qoşdu oğlu, qızına,
Dözdü balalarının
Hər cür işvə, nazına.
*28.06.2003*

## KİMƏ NEYLƏMİŞƏM, NƏDİR GÜNAHIM?

*(Özümə və ailə üzvlərimə ithaf edirəm)*

Zülmü siqar tək içimə çəkdim,
Göz yaşlarımı içəri tökdüm.
Kədər-qəm əlindən yıxıldım, çökdüm,
Kimə neyləmişəm, nədir günahım?

Kimsəylə bölmədim pünhan dərdimi,
Kimin vecinədir deyim dərdimi.
Gecələr Allaha açdım əlimi,
Kimə neyləmişəm, nədir günahım?

Əlimin bir zərrə duzu da yoxdur,
Yalandan üzümə gülənlər çoxdur.
Namərdin hər sözü qəlbimə oxdur,
Kimə neyləmişəm, nədir günahım?

Şəfa uzaqdadır, cəfa mənlədir,
Xırda bir haqsızlıq məni qəmlədir.
Mənim sevincim də, vallah, nəmlidir,
Kimə neyləmişəm, nədir günahım?

Dünya yaşamağı bacaranındır,
Nəyimiz varsa da Yaradanındır.
Təskinlik gətirən bir ad-sanımdır,
Kimə neyləmişəm, nədir günahım?

Can fəda olsa da, verən yox qiymət,
İstər kafir ol, ya eylə ibadət.
Niyə dərd çəkəndi bu Vüqar Əhməd,
Kimə neyləmişəm, nədir günahım?

# MƏN ƏYİLMƏZ BİR DAĞAM

**AZƏRBAYCAN**

Tarixi qədimdir milyon il öncə,
Oğullar cəngavər, qızlar incə.
Dünya şöhrətlidir həm Bakı, Gəncə,
Azərbaycan elim, doğma Vətənim.

Neft qoxuyan güldü gözəl Abşeron,
Torpağı qızıldır olsa da şoran.
Vətən torpağıdır Mil, Muğan, Aran,
Azərbaycan elim, doğma Vətənim.

Qızlara yaraşıqdır lahıc örpəyi,
Naxçıvan duzuyla dağlı çörəyi.
Talışda dadlıdır plov xörəyi.
Azərbaycan elim, doğma Vətənim.

Şuşanın havası, Qazax lavaşı,
Göyçəsi qədimdi bilinmir yaşı.
Sonu qələbədir türkün savaşı,
Azərbaycan elim, doğma Vətənim.

Ərdəbil, Urmiya, Astara, Təbriz,
Borçalı torpağı canımdan əziz,
Şəkinin ləhcəsi ləzizdən ləziz,
Azərbaycan elim, doğma Vətənim.

Adını eşitcək söylədim mən can,
Bir ucu Dərbənddi, bir ucu Zəncan.
Oğlu var Günəş tək şüalar saçan,
Azərbaycan elim, doğma Vətənim.

**QARABAĞDIR**
*(nəğmə)*

Nə qədər ki, torpaqlarım işğaldadı,
Mübarizəm, savaşlarım qabaqdadı,
Qarabağım çağrılmamış qonaqdadır,
Torpaqlarım yenə mənim olmayınca,
Soyum, köküm abşeronlu bakılıdır,
Həm ürəyim, arzularım Qarabağdır.

Anam, bacım sən başına qara bağla,
Şəhid olan oğullara hər an ağla,
Düşmən gəzir təmtəraqla Qarabağda,
Torpaqlarım yenə mənim olmayınca,
Yuxularım, röyalarım çıxıb qeybə,
Xəyallarım, ümidlərim Qarabağdır.

Çadırlarda ey doğulan  körpə – uşaq
Uca səsdən, məlahətdən nə danışaq,
İlan mələr bu yerlərdə səsin boğuq,
Torpağlarım yenə mənim olmayınca,
Segahımı dinləyənlər doymayacaq,
Cabbar, Seyid, Xan Şuşalı olmayacaq

*Nəqarət:*
Gözəl Allah, qaytar mənə Ağdamımı,
İstəyirəm öz evimi,  öz obamı,
Gözü yaşlı qoyma mənim sən anamı,
Torpağlarım yenə mənim olmayınca,
Günüm qara, sözüm , nəğməm qəm olacaq.
Azərbaycan torpaqları kəm olacaq

Qarabağın insanları nəzakətli,
Xanəndələr oxuyurlar məlahətli,
Vüqar Əhməd soruşur ki, nə halətdi,

Torpağlarım yenə mənim olmayınca,
Xarı bülbül böyümədən tez solacaq,
Qarabağın şikəstəsi nə olacaq ?

## YAŞAMAĞA NƏ VAR Kİ

Xoş keçə hər anımız,
Şəfa tapa canımız,
Qaralmasa qanımız,
Yaşamağa nə var ki.

Şirin ola dilimiz,
Dua etsə əlimiz,
Bol ola hər ilimiz,
Yaşamağa nə var ki.

Ölüm-itim olmaya,
Arzularım solmaya,
Yekun vursaq davaya,
Yaşamağa nə var ki.
*23-25 mart 2003*

## ƏLİFBANI ÖYRƏNDİM

Körpəliyi unutdum,
Elə ki qələm tutdum,
Dərsimi bilməyəndə
Mən utandım, tutuldum.

Əlifbanı öyrəndim,
Höccələdim sözləri
"Ana" yazdı qələmim,
Sevindirdim sizləri.

Elmi, savadı mənə,
Öyrədir müəllimim,
Mən də deyirəm yenə,
Doğmadır ana dilim.

Bu gün hamı burdadır,
Əlifba bayramıdır,
Ana dilim bal dadır,
Bayramınız mübarək!

Öncə gəldik məktəbə.
Biz utana-utana,
Qazanırıq qələbə,
Yazırıq Ata, Ana.

Söyləyirik sənə - can!
Vətənim Azərbaycan
Səni qoruyacağıq,
Bəs görəsən biz haçan?

Sevinc doğur qəlbimə,
Əlifbanı bilirəm.
Mənim əziz müəlliməm,
Səni - Ana bilirəm.

"A" - la başlayır "Ana",
"A" - la yetir o sona,
Car çəkirik cahana.
Əlifba bayramıdır.

"Oba" - dedim, döyündüm,
"Baba" dedim, sevindim,
Mən nənəmlə öyündüm.
Əlifba bayramıdır.

Oxuyacağam Sabiri,
Mən Vurğunu, Müşfiqi,
Şirvanini, Zakiri,
Mən Səhhəti, Şaiqi…

Öyrənəcəm hər sirri,
Füzuli tək şairi,
O bölünmüş Arazı,
Bir də Məmməd Arazı.

Ən müqəddəs olacaq,
Mənə "Quran" kitabı.
Dünya mənim olacaq,
Sevəcəm hər kitabı.

Hesabı öyrənəcəm,
Həmişə "5" alacam,
Mən də müəllim olacam,
Ay əziz müəlliməm.

Mən çəkəcəm zəhməti,
Alacağam qiyməti.
Sevəcəyəm, a dostlar,
Şair Vüqar Əhmədi.

## MİN ALQIŞ

Dənizlər yaranıb yağan yağışdan,
Məhəbbət sezilir ani baxışdan.
Rənglər valeh edir rəngli naxışdan,
Alqış yaradana, alqış, min alqış.

Xəyallar seyr edib çəkir xəritə,
Sevgilimlə gəzdik mindən çox qitə,

Dünyanı fəth etdik sanki get-gedə,
Uzaq ola bizdən bədnəzər, qarğış.

Dağlar da gözəldi, göllər, çəmən də,
Çiçəklər gözəldi suda çiməndə,
Sözlər  qıfıl olub yatır sinəmdə,
Sanki bir məlhəmdi hər narın yağış.

**VALLAH**

Dərd-kədər əlindən əriyir insan,
Bir parça çörəyə əyilir insan,
Hər ağır dərdi də əridir insan,
Başqa əlac yoxdur, neyləyək vallah.

Taleyin yazısı nədirsə, odur,
Gözəl dünya bizi necə aldadır,
Xoş gün varsa, sabahkı gün qaradır,
Başqa əlac yoxdur, neyləyək vallah.

Nə qədər deyərlər: - buna da şükür
Dərdlilər gizlində göz yaşı tökür.
Acgözlər Vətəni dağıdıb, sökür,
Başqa əlac yoxdur, neyləyək vallah.

Nazirlər nə görsə - deyirlər mənim,
Paqonlu dilənçi xalqına qənim,
Allah olacaqdır sizlərə qənim,
Başqa əlac yoxdur, neyləyək vallah.

Yerliçilik bir mərəzdir, sağalmaz,
Deyirlər ki, əsil kişi ağlamaz.
İçimdə ağlaram, yox belə qalmaz,
Başqa əlac yoxdur, neyləyək vallah.

Zəlzələ də dərs olmadı bunlara,
Piyada oluruq çox oyunlara,
Allah dönməyəydik biz qoyunlara.
Başqa əlac yoxdur, neyləyək vallah.

**CANIM SAĞ OLSUN**

Arzum var ki, ilk günündən göyərdi,
Arzum var ki, uzaq oldu seyrəldi,
Arzu var ki, özü qapı döyərdi,
Təki canın qoy sağ olsun, ay Vüqar.

Ümidlərim hey boynunu əyərdi,
Bəd günlərim məni yuyub sərərdi,
Qoca anam təskinlikçin deyərdi,
Təki canın qoy sağ olsun, ay bala.

Xəyallarla nə xoşbəxtəm, ilahi,
Sevinəndə, kədərləndim sabahı,
Allahımdır arzuların pənahı,
Təki canın qoy sağ olsun, ay bala.

Zaman bizi fırfıra tək fırladır,
Məzarda canımız rahatlıq tapır,
Ruhumuz göylərdə arzuya çatır,
Təki canın, qoy sağ olsun, ay bala.

**NEYLƏYİM?**

Biri sənə can desə,
İnanmıram bu sözə.
Ürək qızmır bir kəsə,
Gəlsin sənlə göz-gözə.

Dost-tanış xəbisləşir,
Gözəl dünya pisləşir,
Düz işlərim,nəhsləşir
Bilmirəm heç neyləsin?

Sevinc çıxıb qəhətə,
Rast oluram qeybətə,
Şiddətli bir töhmətə,
Bilmirəm heç neyləim?

Qəmimi, kədərimi,
Niyə axı, deməyim?
Eşidin siz səsimi,
Bilmirəm heç neyləyim?

Qohum-qardaş yox olur,
Dünyasını dəyişir,
İtki qəlbə ox olur,
Bilmirəm heç neyləyim?

Təmənnalı dünyadı,
Bir yarımçıq röyadı,
Ölüm sanki xülyadı,
Bilmirəm, heç neyləyim?
*16.01.2003*

**ŞƏN GƏLƏR**

Şad günləri mən sayıram kəm gəlir,
Sevinc yoxdu, əvəzinə qəm gəlir.
Arzularım sərxoş olub dəm gəlir,
Sanıram ki, gələn günlər şən gələr.

Xoş xəyallar üzür məni, neyləyim?
Mən nə qədər dodağımı çeynəyim?

Fikirlərdən su içrədir köynəyim.
Sanıram ki, gələn günlər şən gələr.

Arzularım göydə uçan göyərçin,
Hər nə varsa adiləşib mənimçin.
Üzüm gülmür görən nədən, bəs neçin?
Sanıram ki, gələn günlər şən gələr.

"Qaranlığın sonu işıq" - deyirlər,
Bu dünyada bir yaraşıq görürlər.
Yaxşılıqdan dəstə-çələng hörürlər,
Sanıram ki, gələn günlər şən gələr.

Pis günlərlə gözəl günlər gəlir tən,
Ağız büzür bir naxələf yol ötən,
Gözəl Allah, vahid ola bu Vətən,
Sanıram ki, gələn günlər şən gələr.

Ayrılıqdan dəhşət yoxdur dünyada,
Gedənləri kaş görəydim röyada.
Möhtac etmə nə doğmaya, nə yada,
Sanıram ki, gələn günlər şən gələr.

Keşkə canım sağlam ola, sağ ola,
Hər həftədə bircə günüm ağ ola.
Əncir, üzüm, narın qumlu bağ ola,
Sanıram ki, gələn günlər şən gələr.

Oğlum, qızım kaş ki xoşbəxt olaydı,
Toylarında anası oynayaydı.
Bədnəzərin baxışları yanaydı,
Sanıram ki, gələn günlər şən gələr.

Mənim xalqım sözlərimi bəyənir,
Bu məhəbbət gözlərimə bələnir.

Vüqar Əhməd haqq itəndə dillənir,
Sanıram ki, gələn günlər şən gələr.
*17.01.2003*

## HARA GEDİM

Allah, hara gedim dərdin əlindən,
Dərdə əlac qılmaq gəlmir əlimdən.
Allaha dualar düşmür dilimdən,
Dərd, kədər, qəm çökür qəmli gözümə.
Dərd yağışı yağır nəmli üzümə.

Hara gedim, bəlkə göyə uçum mən,
Yer altını bəlkə öpüm, qucum mən.
Dərdlərimə yoxsa edim hücum mən,
Dərdli günlər düşüb mənim izimə,
Qəm ahəngi çökür şerə, sözümə.

Hara getsəm, dərdlər məni izləyir,
Neyləyim ki, ürək buna dözməyir.
Mən kədərdən, kədər məndən bezməyir,
Heyran qaldım öz özümdə dözümə,
Gecələr də yuxu getmir gözümə.

Hara gedim heç bilmirəm, neyləyim?
Ürəyimdən tez-tez keçir ölməyim?
Yaddan çıxıb bir ürəkdən gülməyim,
Dərd, kədər, qəm çökür qəmli gözümə,
Dərd yağışı yağır nəmli üzümə.
*03.04.2002*

## HƏR KƏSİN ÖZ BAXIŞI

Taleyin min rəng, min naxışı var,
Dumanı, çəni var, qar, yağışı var.
Bütün sevənlərin xoş alqışı var,
Hər kəsin dünyaya öz baxışı var.

Dərdsizlər gün boyu danışır, gülür,
Dərdlilər lal fəryad içində, ölür.
Dərdini içində saxlayır, demir,
Hər kəsin dünyaya öz baxışı var.

Taleyin min üzü, var min sifəti,
Fərsizin acından ölür gülfəti.
Acgöz fırıldağı edir xəlvəti,
Hər kəsin dünyaya öz baxışı var.

Dağ boyda insanı yıxan paxıllıq,
Çörəyə möhtacdır yazıq bədqılıq,
Hamının arzusu tək salamatlıq,
Hər kəsin dünyaya öz baxışı var.

Cavanın saçları ağarıb dümağ,
Dünya əbədidir bizlərsə qonaq,
Nə qədər deyərlər - mehriban olaq!
Hər kəsin dünyaya öz baxışı var.

Çox acıma, acı günə qalarsan,
Bir gün sözlərimi yada salarsan,
Kimsəsiz tək tənhalıqda qalarsan,
Hər kəsin dünyaya öz baxışı var.

Qoca dünya, vallah, məndən cavandır,
Çörəyim tək arzular da yavandır,
Eniş-yoxuş, bəzən yolum rahatdır,
Hər kəsin dünyaya öz baxışı var.

Taleyimiz bu cahana səyahət,
Ezamiyyət qurtaranda yox möhlət.
Ölülərə, diriyə var məhəbbət,
Hər kəsin dünyada öz baxışı var.

**AŞİQƏM GÖZƏLLƏRƏ**

Bir kəs deməz arsızam,
Qərarsızam, halsızam.
Qəmdən içim alışır,
Mən yanıram, susuzam.

Mən tənhayam, yalqızam,
Sübh görünən ulduzam.
Ürək açan nə var ki?
Həyatdan narazıyam.

Mən şəhidəm, qaziyam,
Koroğlunun sazıyam.
Qohumlara ruzuyam,
Çin olmayan arzuyam.

Mən düşmüşəm tilsimə,
Açıl, - dedim, - Simsimə!
Mizrab vurdum ağ simə,
Nəğmə dedim sevgimə.

Aşiqəm gözəllərə,
Sevişən dəcəllərə,
Heyranam gül-çiçəyə,
Payızda xəzəllərə.

Badəyə süzdüm şərbət,
Etdim eşqə itaət,

Xeyirə üz tutmuşam,
Heç bilmədim xəyanət.

Növhə deyən dərvişəm,
Haram yeməz bir dişəm.
İlhamı Allah verir,
Nəğmə yazmaqdır peşəm.

Dostlara həmsöhbətəm,
Paxıllara qeybətəm.
Zəm-zəm suyu, şərbətəm,
Şair Vüqar Əhmədəm.

## GƏNCLİK HİMNİ

Nəğməli ozanlarıq,
Tarixi yazanlarıq,
İlhamlı cavanlarıq,
Azərbaycan gəncləri.

Heydər baba dayaqdı,
Vətənimə, elimə,
O sübhəcan oyaqdır,
Qayğısı var dilimə.

Bu Vətənə keşikçi,
Sərhədlərə əsgərik,
Vətən vahid olmasa,
Biz sakitcə ölərik.

Vətəni sevir hamı,
Ondan alır ilhamı,
Ümid verir sabahı,
Azərbaycan gəncləri.

## NABRAN
*(Nəğmə)*

Adı dünya şöhrətli,
Ən gözəl bir ləzzətdi,
Havası bir nemətdi,
Gözəl Nabran, Nabranım.

Bura Xaçmaz torpağı,
Göy Xəzərin oylağı,
Meşələri yaylağım,
Gözəl Nabran, Nabranım.

Dalğalanır göy dəniz,
Şəfa tapır hər məriz,
Ağ balığı çox ləziz,
Gözəl Nabran, Nabranım.

Bura sanki cənnətdi,
Sevənlərə xəlvətdi,
Nabranı vəsf eləyən,
Şair Vüqar Əhməddi.

## RUHLAR

Ruhlardan kömək umdum,
Onların "varlığını"
Hiss elədim, mən duydum,
Göylərin qonağını.

Məzar üstə gedirəm,
Sanki mən də ölürəm.
Buradakı evimi
Mən indidən görürəm.

Qəlbin naləsi, ahı,
Narahat edir ruhu.
İş düzəlir sabahı,
Ruhlar mənə köməkdir.

Atamın ruhu harda,
Görmür ki, oğlu darda,
Qalıb boranda, qarda,
Ruhlar mənə köməkdir.

Musiqi ruha qida,
Deyib müdrik babalar,
Şerim, nəğmələrimlə
Qida verdim ruhlara.

Ruhların qarnı toxdur,
Bir gün eşidəcəksiz,
Vüqar Əhməd də yoxdur,
Ruhu köməkdi sizə.
*05.02.02003*

**NİFRƏT**

O insan ki, pislik edir hər kəsə,
Qulaq asır o şeytana, iblisə.
Bəd əməldən yenə düşür həvəsə,
Nifrət o kəslərə, min dəfə nifrət!

Bəzən adam nifrət edir dövrana,
Xain, paxıl, rəzil, alçaq insana.
Nifrət bu günlərə bizi salana,
Nifrət o kəslərə, min dəfə nifrət!

Dünyadan bezəndə özümə nifrət,
Düz danışmayanda sözümə nifrət.

Ölməyib yaşadım, dözümə nifrət,
Nifrət o kəslərə, min dəfə nifrət!

Nifrət öz xeyrini üstün tutana,
Miyançılıq edib ara qatana.
Lə'nət olsun əcdadına, atana,
Nifrət o kəslərə, min dəfə nifrət!

Dost dostuna etsə əgər xəyanət,
Kimdə əgər yoxsa zərrəcə cür'ət.
İnsan oğlu yenə etsə cinayət,
Nifrət o kəslərə, min dəfə nifrət!

Dəhşətlidir vəfasız bir məhəbbət,
Bağışlanmır yaddan çıxsa ibadət,
Dağıl, dünya! İtsə əgər ədalət,
Nifrət o kəslərə, min dəfə nifrət!

Acından ölürsə kim çəksə zəhmət,
Başa bəladırsa istedad, şöhrət.
Nifrət paxıllara, xainə nifrət,
Min ildə yetişir bir Vüqar Əhməd!
*05.02.2003*

**YALVARIM**

Rəbdən kömək istədim,
Özü verdi məsləhət,
İncimədim, küsmədim,
Göydən gələn bir töhmət.

Ziyarət et ocaq, piri,
Öpdüm daşı, qəbiri,
Öpdüm izi, ləpiri,
Gördüm dözüm, səbiri.

İşlərim düzəlmədi,
Arzular göyərmədi,
Ruzi bizə gəlmədi,
Qeybə çıxdı səadətim.

Anam rəbbə yalvarır,
Bəndələrin dardadır,
Ümidimiz qurtarır,
Qoyma, ümid yox olar.

Qara qoçu minmişik,
Yol gedir cəhənnəmə,
Yaman dara düşmüşük,
Batdıq kədərə, qəmə.

Lal fəryaddan ölürəm,
Mənə belə gəlir ki,
Səadəti görürəm,
Yaşayıram hələ ki…
*04.02.2003*

## DƏRDLƏRİMƏ YANANIM

Hamı üçün bir tonqal tək yanardım,
Yadları da mərhəm, doğma sanardım.
Dərdliləri işarədən qanardım,
Bəs niyə yox dərdlərimə yananım.

Mən dənizəm ay dərdlilər söyləyin,
Duyan olmaz kimsələrə deməyin,
Yıxılana təpik atıb gülməyin,
Daş atan çox, gərək möhkəm dayanım.

Bir tufan var yollarımda dözürəm,
Bir dərviş tək səhraları gəzirəm,
Namərdləri acı sözlə əzirəm,
Dua etdim, salavatla oyanım.

Mən günəşəm qamaşdırram gözləri,
Arif qanar mən yazdığım sözləri,
Xəbislərin peşman olar özləri,
Şükr edirəm, el-obamdır qananım.

Göylər mənə hey təskinlik verirlər,
Şər atanlar hey aramızdan gedirlər.
Sevənlərim bir qəhrəman görürlər,
Oğlum, qızım həm canımdır, həm qanım.

Vücudum yox, xəyallarım gəzişir,
Kasıb-kusub ağ-yalavac büzüşür,
Söz gülləsi qəlbə dəyib ötüşür,
Şirin sözdü şəfa verən dərmanım.

Sevinirlər biganələr ölümə,
Tamah artıb neft qoxuyan gülümə,
Yad kəlmələr dolur doğma dilimə,
Bir yanğın tək tüstü verir qəlyanım.

İtə atdım it yemədi namusu,
Yaman artır fahişəlik kabusu,
El malını yeyən axır qan qusur,
Qeybə çıxır vurub-yaxan tərlanım.

Doğma Vətən neçə düşüb tilsimə,
Mizrab vurdum sarı simə, ağ simə,
Açılmayır, "açıl" - dedim sim-simə,
"Cadukərlə" dop doludur hər yanım.

Bir məhəbbət, bir də ümid yaşadır,
Qoca dünya sanki mənə yaşıddır,
Düz danışdım, dedilər ki, naşıdır,
Qüzeyim tək çox doğmadır o tayım.

Ey Allahım uzaq eylə töhməti,
Nəğmələrim — bu millətin sərvəti,
Danışıram pənahımla xəlvəti,
Xoşbəxt olsun gözəl dünyam, cahanım.

Gözüm gülür, qəlbim səssiz ağlayır,
Dərdlilərin dərdi məni dağlayır,
Nə yaxşı ki, təbim coşub çağlayır,
Məhəbbətdi şahənşahım, sultanım.

Olmayaydı el içində pərişan,
Sevənlərə taxılaydı toy-nişan,
Vüqar Əhməd öz xalqına yaraşan,
Xain çıxsam al-qanıma boyanım.
*25.01.2003*

## SƏNSİZ ÇƏTİNDİ

Unutmağa çalışıram,
Ürəyimdə gecə-gündüz,
Sənlə küsüb barışıram,
Ya sən, ya mən əyri, ya düz.

Öz-özümlə dalaşıram,
Şəklimizə daraşıram,
Eşq gücündən dağ aşıram,
Sənsiz yaman çətin mənə.

Kaş biləydim yadındayam,
İnanma ki, səndən sonra,

Mən özgə bir qadınlayam,
Sənsiz yaman çətin mənə.

Telefonun söndürülüb,
Hamı bilir, mən bəxti yox,
Sənin üçün çox sürünüb,
Sənsiz yaman çətin mənə.

Könül verdim fəqət sənə,
Görüşəydik keşkə yenə,
Canım qurban bircə sənə,
Sənsiz yaman çətin mənə.
*25.01.2003*

**YUXUDA SƏADƏT**

Qumsallıqda ayaqyalın gedirdim,
Bir ləpiri izləyirdim, güdürdüm,
Səadətin ardınca mən gedirdim,
Birdən-birə gözlərimə göründü,
Bu ürəyim şadlıq ilə döyündü.

Əl uzatdım o qeyb oldu, dayandım,
Anladım ki, mən yuxudan oyandım,
Düz sözlərə içməyə yox bir andım,
Yuxuda da səadətim yox oldu,
Bu itkinin xofu qəlbə ox oldu.

Yuxu yozdum, əksi olur, bu adət,
Qismət deyil yuxularda səadət,
Səadətçin etdim böyük səyahət,
İllər ötdü ömür çatdı yarıya,
Gözəllər də dönür qoca qarıya.

Oğul-uşaq, şöhrət qatdı başımı,
Saymadım heç təhvil olan yaşımı,
Bir vaxt yoxdu qaşımağa başımı,
Görən niyə səadəti tapmıram,
Görən niyə arzulara çatmıram.

Şad günümdə, toy-düyündə oynadım,
Gecə-gündüz səyahətdən doymadım,
Sevincimdən yoxdu qolum-qanadım,
Dedim Allah səadətim hardadır?
Qismət eylə, yoxsa bəndən dardadır.

Dedilər ki, bu xoş günlər bəs nədir?
Bəxtəvərlər xoşbəxtlikdən qəsd edir,
Səadətin açarları səndədir,
Bu səadət kimdədirsə öndədir,
Deyirlər ki, bə səadət səndədir.

Bilməmişəm, yuxularım çin olub,
Ömrüm boyu istədiyim gün olub,
İndi artıq Vüqar Əhməd yorulub.
Pis günüm də mənə görə səadət,
Arzuladım mən hamıya səadət.
*25.01.2003*

## BƏXT AĞARAYDI

Bəxtim də qaraydı, saçım da qara,
Saçlarım ağardı, bəxt ağarmadı.
Deyin dərd əlindən mən gedim hara,
Saçım ağarınca, bəxt ağaraydı.

Saçlar gündən günə bəyazlaşırdı,
Nankorlar get-gedə, dayazlaşırdı,

Şeytan sırtıqlaşır, həddi aşırdı,
Saçım ağarınca, bəxt ağaraydı.

Ağ günləri soraqlayıb qovurdum,
Səadəti mən axtarıb yoruldum,
Cavan ikən bir ağsaqqal mən oldum,
Saçım ağarınca, bəxt ağaraydı.

Oyanmazmı qara bəxtim, ay Allah,
Qismət eylə bəndələrə xoş sabah.
Nə toxam, nə də ac, yoxdur heç tamah
Saçım ağarınca, bəxt ağaraydı.

Səadətin yenə üzü dönübdür,
Bəlkə elə bəxt ulduzum sönübdür.
Vüqar Əhməd  bir dərvişə çönübdür,
Saçım ağarınca, bəxt ağaraydı.

## GÖZLƏRİMİN YAĞIŞI

Gözümdən yağdı yağış,
Mən ürəkdən ağladım.
Etməyin mənə qarğış.
Allaha bel bağladım.

Buludluydu, gözlərim,
Sevinmirdi sözlərim
Mənə quru qazanlar,
Peşman oldu özləri.

Mən ağlayıb boşaldım,
Taleyimlə barışdım.
Zəhlətökən bəxt üçün,
Öz-özümlə dalaşdım.

Göylər yenə pərişan,
Mənim gözlərim kimi,
Qismət ilə barışan,
Heç olmaz qəlbim kimi.

## NOVRUZUM

Dünya al-əlvan oldu,
Arzularım çin oldu.
Sevdiyim bir gün oldu,
Novruz gələndə elə.

Aşıqlar gəlsin dilə,
Xalqımın üzü gülə,
Sevindim gilə-gilə
Novruz gələndə elə.

Bol olar çörək-duzum,
Sən gələndə, Novruzum.
Xoş gəlib bahar-yazım,
Novruzum, ay Novruzum.

Hər yana nur saçılır,
Bağçada gül açılır,
Quşlarda dil açılır
Novruz gələndə elə.

## SƏNSİZ, SƏNİNLƏYƏM

Qumlu sahillərdə tək oturmuşam,
Yenə də xəyala, fikrə dalmışam,
Səni düşünmü şəm, səni anmışam,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Dənizə söylədim eşqi, sevgimi,
Ləpələr eşitdi mənim səsimi,
Dənizim duyurdu mənim qəlbimi,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Keçənin sükutu qəmləndirirdi
Qağayı gülüşü şənləndirirdi.
Suallar içimi dilləndirirdi,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Narın qum çınqıllar, balıqqulağı,
Sakitcə dinlərdi mən tək qonağı,
Dərddən islanırdı gözüm, yanağım,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Qumsal sahillərdə təkəm, tənhayam,
Gündüzlər günəşəm, gecələr ayam,
Yayda qarlı qışam, qışdasa yayam,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Gözümə göründü uzaqdan bir qız,
Dəniz sahilində biz idik yalnız.
Buludlu bir göydə sanki tək ulduz,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Yaxına gələndə gördüm sevgilim,
Sevincdən lal oldum, tutuldu dilim.
Mənim sorağıma gəlmişdi gülüm,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Baxışlar sevincdən fəryad qopardı,
İnanmazdım məni eşqim tapardı,
Axtaran - deyirlər, gəlib tapardı,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Sevincdən, şadlıqdan biz ağlayırdıq,
Baisin dalınca biz qarğıyırdıq,
Ən gözəl, ən xoşbəxt bir çağlarıydı,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Öncə tufan qopdu, sonra da sükut,
Dəniz bizə dedi, keçmişi unut.
Bərk yağış başladı, gəl ucundan tut,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Başladıq qaçmağa, biz ayaqyalın,
İslandı üzümüz, saçlar, üz alın,
Altına girmişdik taxta daxmanın,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Dünya bizim idi, biz də dünyanın,
Çin oldu axırı şirin röyanın.
Qapımız döyüldü;- qalxın, oyanın,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Qoca balıqçıydı, koma onunmuş,
Bu xoşbəxt bir ocaq bu qocanınmış.
Bu qoca savablar çox qazanıbmış,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Bu tənha qocanın öpdük üzündən,
Xeyir-dua aldıq, hər bir sözündən.
Bir dünya dərd sezdik onun gözündən,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Qanımız qaralar, dərd- qəm demədi,
Mənim taleyim də, ömrüm belədi.
Dənizi dost bildim, mənə əbədi,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Kəbin kəsiləndə şahid qoca ydı,
Bizimçün o qoca necə ucaydı.
Dünyada yeganə, vahid Qocaydı,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Dəniz sahilində oğul-uşaqla,
Balıq şorba yedik iri qaşıqla,
Qocanın otağı doldu işıqla,
Sənsiz, səninləyəm gecə, gündüz də.

Dadlıdır,-babacan, söylədi, oğlum,
Burda sona yetir, mənim bu nağılım,
Vüqar Əhməd deyir, çaşmayıb ağlım,
Sənsiz, səninləyəm gecə, gündüz də.
*28.06.2003*

**MƏN DÜNYAYAM**

Bir ağacam, çiçəklərim bar verir,
Bir buludam yağışlar göz yaşımdı,
Bir aşiqəm, eşqi mənə yar verir,
Mən dünyayam, bilinməyən yaşımdı.

Bir dənizəm, sahilimdə dərdlilər,
Dalğalansam, dərdlilər də gün görər,
Bir günəşəm, işığımdan qəm ölər,
Od oğluyam, odlandırram qəlbləri.

Nəsimi tək haqqa saldım meylimi,
Füzuliyəm, mən də sevdim Leylimi.
Xətaiyəm, sevdim ana dilimi,
«Dərya içrə qocaman dağ» - Sabirəm.

Mən Vətənəm – sərhədlərim müqəddəs,
Əldə – qələm, yaratmağa var həvəs.

Mən Bakıyam, Təbriz olub dar qəfəs,
Qüzey-Güney, bir ürəkdə bir nəfəs.

Bir bulağam, için mənim suyumdan,
Neft qoxuyan bir gül çıxır quyumdan.
Fayton sürdüm, qaşdılar «duy-duy»umdan
Bəxtim həm ağ, həm də qara bir oğlan.

Məlik Məmməd – ağ atımı sürürəm,
Qara qoçu, ağ qoçumla döyürəm.
Öləndə də, torpaq üçün ölürəm,
Mən şəhidəm, torpaqlarım Vətəndir.

Enməyəcək, şahə qalxan bayrağım,
Yaxındadır toy-bayramlı növrağım.
Ev sahibi, razı gedən qonağım,
Vətən mənim, mən də onun oğluyam.

Övladlara saldım eşqi, mehrimi,
Yaşım qədim açmaq çətin sehrimi.
Dünya sevir Nizaminin şerini,
Nəğmələrdə vardır mənim öz adım.

Üzeyirəm, mən yaratdım «Koroğlu»,
Çənlibelli Oğuz oğlu, od oğlu.
Qələbədə kəsəcəyəm min toğlu,
Qəbul eylə, qurbanımı, ay Allah!

Soyum türkdü, dinim İslam, müsəlman,
Oğullarım bir çəngavər, qəhrəman.
Düşmənlərə verməz heç kim – bir aman,
Gələcəkdir bu yaxında xoş zaman.

Mən Vətənəm, Azərbaycan mənəm, mən,
Millətlərə bacı, qardaş deyən mən,

Sərvətimlə öz-özümü öyən mən,
Azərbaycan, Azərbaycan mənəm, mən.

Hamı sevir bu müqəddəs ölkəni,
Nəğməkarlar mənə qoşur nəğməni,
Vüqar Əhməd vəsf eləyir hey məni,
Azərbaycan, Azərbaycan mənəm, mən.

## AY QARDAŞLAR, AY BACILAR

Sevindirin könülləri, qəlbləri,
Uzaq edin dərmanları, həbləri.
Rədd eləyin, ayıb olan dəbləri,
Ay qardaşlar, ay bacılar, sizləyəm.

Siz isidin yaxşı dostun xətrini,
Uca tutun ata, ana qədrini.
Əzbər deyin yaxşı şerin sətrini,
Ay qardaşlar, ay bacılar, sizləyəm.

Məhəbbətdir bu dünyada ən əziz,
Həmsöhbətim mavi Xəzər-göy dəniz.
Müdrik olun, nə qul olun, nə kəniz,
Ay qardaşlar, ay bacılar, sizləyəm.

İki gənci siz küsülü görsəniz,
Barışdırın bunu deyir: bəndəniz.
Vicdan safdır saxla onu tər-təmiz,
Ay qardaşlar, ay bacılar, sizləyəm.
*29.05.2003.*

## ALLAHA GÜVƏNDİK

Əyni nimdaş, libas alıb geyinir
Biri acdır, çörək tapır, sevinir.
Əlacsızlar gecə gündüz deyinir.
Niyə axı boş şeylərə sevindik,
Xoşbəxtlikçin biz Allaha güvəndik.

Qarımış qız bivaxt gəlin köçəndə,
Kimsəsizlər özünə qəbr seçəndə.
Allah deyib əldə badə içəndə,
Fikir verin, gör nələrə sevindik,
Xoşbəxtlikçin biz Allaha güvəndik.

Ağacları qırıb odun edəndə,
Böyüklərə mədhiyyələr deyəndə.
Acizləri yıxıb, döyüb söyəndə.
Sevinirik, gör nələrə sevindik,
Xoşbəxtlikçin biz Allaha güvəndik.

Düz deyənin dili dibdən kəsilir,
Bədbəxtlərim göz yaşını tək silir.
Sevinirik gəlməyəndə tək səbir,
Fikir verin gör nələrə sevindik,
Xoşbəxtlikçin biz Allaha güvəndik.

Yolda, paqon daşıyan bir dilənçi,
Haqq almasa dünya bizim inan ki,
Az danışsa zəhlə tökən çərənçi,
Fikir verin, gör nələrə sevindik,
Xoşbəxtlikçin biz Allaha güvəndik.

Torpaq verib, atəşkəsə sevindik,
Matəmdə də biz zərziba geyindik.
Qaçqınların taleyinə biz güldük.

Fikir verin, gör nələrə sevindik,
Xoşbəxtlikçin biz Allaha güvəndik.

Bir sənətkar qəfil getsə məzara,
Sevinirlər sənət dönsə bazara.
Həkim şaddı millət düşsə azara,
Fikir verin, gör nələrə sevindik,
Xoşbəxtlikçin, biz Allaha güvəndik.

Ucuz tapsaq biz dükandan bir malı,
Qanlı görsək quşlar şahı qartalı,
Cinayətin izi qalsa qapalı,
Fikir verin, gör nələrə sevindik,
Xoşbəxtlikçin, biz Allaha güvəndik.

Sahibkarlar ucuz tutsa zəhməti,
İmkanlılar bizə etsə hörməti.
Şərləyəndə şair Vüqar Əhmədi,
Fikir verin, gör nələrə sevindik,
Xoşbəxtlikçin, biz Allaha güvəndik.
*28.05.2003*

## TƏK

İstər cəm olum, istərsə də tək,
Yenə də tənha, yenə də mən tək.
Ümid pənahım bir Allahımdır,
Milyonlar içrə mən qalmışam tək.

Biz qalmışıq tək, ey dərdlər əl çək,
Dünyanı etdim mən ələk-vələk.
Dəstək görmədim təkəmmiş demək,
Milyonlar içrə mən qalmışam tək.

Dərddən savayı, hamı vəfasız,
Ay Allah necə nə çoxdur arsız.
Yolumuz qardı, qaldıq baharsız,
Milyonlar içrə mən qalmışam tək.

Allah da təkdir, bu təskinliyim,
Tənha olsam da yoxdur dincliyim.
Tərk edir artıq məni gəncliyim,
Milyonlar içrə mən qalmışam tək.

**DÜNYADA**

Nə yaxşı ki, mən xoşbəxtəm röyada,
Nə yaxşı ki məhəbbət var dünyada.
Nə yaxşı ki, əyilmədim mən yada,
Bir dərvişəm bu vəfasız dünyada.

Sərgərdanam, ağı deyən dərvişəm,
Hamı bilir haram yeməz bir dişəm.
Yaxşılıq tək var əbədi bir peşəm,
Heç qalmıram mən əlacsız, dünyada.

Biganəlik çox ağrıdır qəlbimi,
Təskinlik yox bir dağıtsın dərdimi.
Gecə-gündüz göyə açdım əlimi,
Qalmaram mən ac-susuz bu dünyada.

Duz-çörəyin niyə qədri bilinmir,
Paxıllığın kökü qəlbdən silinmir.
Çox axtardım, Dədə Qorqud görünmür,
Sülh yarada, qan-qadasız dünyada.
*1.06.2003.*

## GÖYLƏRİN GÖZ YAŞLARI

Göy üzü tutuldu, buludlar doldu,
Nə oldu göylərə, görən nə oldu.
Göylər pərişandı, qaraldı, soldu,
Bizim dərdimizə ağlayır onlar.

Yağışlar göylərin göz yaşlarıdır,
İldırım göylərin savaşlarıdır.
Ulduzlar səmanın naxışlarıdır,
Qoşa bir taleylə yaşıddır onlar.

Deyir filankəsin üzü tutuldu,
Əvvəlcə tutulur, sonra ağlayır.
Gizli ağlasa da gözlər suludu,
Göz yaşları qəlbi didib dağladı.

Çatılıbdır asimanın qaşları,
Qurumuşdur göylərin göz yaşları.
Qorxuludur gözün sərt baxışları,
Bizim dərdimizə ağlayır onlar.
*1.06.2003.*

## ŞƏFASIZ

Dərdlilər dövlətsiz, varsız,
D ərdsizlər biganə, arsız
Zəmanə də olub vəfasız,
Özüm də yorğun, halsız.

Aşmadım vallah həddimi,
Düzəltmək çətin qəddimi,
Çağırdım imam cəddini,
Dualarım da cavabsız.

Yetim atasız, anasız,
Şəhid anam balasız
Ömür keçmir xətasız,
Bir gecəm yoxdu duasız.

Şəfa tapmır xəstə canım,
Əlacsız - dərdim, dərmanım,
Ümid-Allahım, Quranım,
Hər gün keçir şəfasız.
*05.07.2003*

**DAYAN, SÖZÜM VAR SƏNƏ**

Guşeyi – xəlvətdəyik,
Şirin bir söhbətdəyik.
Eşq havası dinlərik,
Dayan sözüm var sənə.

Biz baxışdıq, dinmədik,
Hey alışdıq, sönmədik.
Eşq yolundan dönmədik,
Dayan, sözüm var sənə.

Qumlu sahil istidi,
Bu dilbər məndən küsdü,
Başımdan çıxdı tüstü,
Dayan sözüm var sənə.

Nə dərviş, nə aliməm,
Nəğmə deyən bir diləm.
Rəvadır sənsiz güləm,
Dayan, sözüm var sənə.

Fağır Allah bəndəsi,
Görsəm əyər bir kəsi,

Darıxıram ertəsi,
Dayan, sözüm var sənə.

Heyranam göz sürmənə,
Demirəm göz süz mənə.
Görünür bir cür mənə,
Dayan sözüm var sənə.

**MƏN BİR...**

Mən bir dənizəm,
dalğalarım pərişan,
Mən bir buludam
göy üzünü dolaşan.
Bir günəşəm gecə küsüb gündüzlərsə
barışan..
Mən bir ulduzam, asimanda
qaçışan.
Bir yağışam ürəklərə yağıram,
Bir baxışdan kövrələrəm, ağlaram,
Bəxtim deyil, saçlarımdır ağaran,
Mən ozanam, qopuz çalıb çağlaram.
Bir loğmanam, əlac qıllam hamıya,
Köməyim yox özümə.
Yardım üçün kim gələrsə
hamıya,
Əl tutaram, inanarlar
sözümə.
Sanki ümid çırağıyam,
Bu dünyanın qonağıyam,
Abi zəm-zəm bulağıyam.
Dağdan axan şəlaləyəm,
Dərd nəğməli bir naləyəm.
Qəlbə düşən bir jaləyəm.

Öz sözümə etibarlı,
Silahım yox,
Mən qələmli cəngavərəm.
Adım, özüm çox vüqarlı.
Nərə çəksəm,
Düşmənlərim pərən-pərən.
Gülüstandan, bağçalardan,
Ən ətirli bir gül dərən,
Mənəm, mənəm, mənəm, mən.
Hərdən hürür bir yol ötən,
Xainlərim, paxıllarım
Çətən-çətən.

Həm də sakit, bir mülayim,
bir küləyəm.
Xəfif-xəfif mən əsərəm
Ürəklərə bir sərinlik
gətirərəm.
Mən gözəllik aşiqiyəm.
Gözəlliyi platonik məhəbbətlə
Mən uzaqdan öpərəm.
Gözəlliyin önündə,
Qul olaraq diz çökərəm
Arzulara çatmayanda
Dərd çəkərəm.
Bir gecəyəm sükutum var.
Bu sükutu pozan ancaq
Məhəbbətli məhəbbətdir.
İlim, ayım, günüm, anım,
Nə gözəldir, qiyamətdir.
Cənnətlərə səyahətdir.
Sevməmək insan üçün
Bağışlanmaz qəbahətdir.
Sevməz ürək, duymayan qəlb
İstintaqsız cinayətdir,

Bu dünyaya xəyanətdir.
İnsan üçün cəhalətdir,
Utanana xəcalətdir.
Bir sözlə,
Pis  cəhətdir.
Mən gündüzəm,
Əlim kimi qəlbi düzəm
Eşqlə dolu mənim kuzəm.
Okeanlarda, dənizlərdə
İstəyirəm mən də üzəm.
İnsanlara könlün açan
Xoş bir sözəm.
Mən gündüzəm, işıqlıyam,
Çil-çıraqlı bir dünyayam.
Gecələr yox, gündüz yatan
İnsanların gördükləri bir röyayam.
Gecə Günəş, gündüz Ayam.
Yer üzündən gur-gur axan,
Nəhəng çayam
Səhralıqda yağış, qaram,
Soyuq qışda günəş olaram
Əyilməzəm, bir Vüqaram,
Yalan sözlə yoxdur aram.
Səbrli ol Vüqar Əhməd
İnanıram gün gələr ki,
Mən də xoşbəxt olaram.
*8.07.2003*

**İŞİN DÜŞƏR**

Şər atma , böhtan atma,
Vaxt gələr işin düşər.
Ay kişi, ara qatma,
Vaxt gələr işin düşər.

Kal meyvəni dişləmə,
Ağzından dişin düşər.
Səbrli ol, inləmə ,
Vaxt gələr işin düşər.

Əlində var əl yeri,
Davada qoy əl yeri.
Dosta eylə əl, yeri,
Vaxt gələr işin düşər.

Çalış üz utanmasın,
Səbri olmaz qanmazın,
Dostu yaxın sanmadın,
Vaxt gələr işin düşər.
*8.07.2003.*

**DAHİ SABİR**

Bir qocaman dağ görürəm,
İnsan var ki, yüz illərdir.
Onu canlı , sağ görürəm,
O Sabirdir, dahi Sabir.

Bu dünyanı ağ görürəm,
Bir gülüstan bağ görürəm,
Bağbanını sağ görürəm,
O Sabirdir , dahi Sabir.

Abidədir «Hoh-hohnamə»,
Şerim üçün bir salnamə,
Müasirdir hər zəmənə,
O, Sabirdir, dahi Sabir.

Əkinçini ayıldardı,
Fəhlələri qaldırardı,

Qanmazları qandırardı,
O, Sabirdir, dahi Sabir.

Həcv yazdı, taziyanə,
Yaradardı yanə-yanə,
Yazmaq çətin sabiranə,
O, Sabirdir , dahi Sabir.

O, Şirvanda doğulmuşdu,
Cəhalətdən boğulmuşdu,
Şairlərə baş olmuşdu
O, Sabirdir, dahi Sabir.

Dərs demişdi Balaxanıda,
Təb variydi can, qanında,
Şöhrət vardı ad-sanında,
O, Sabirdir, dahi Sabir.

Mirzə Cəlil qardaşıydı ,
Seyid Əzim eldaşıydı,
Şöhrət vardı ad-sanında,
O, Sabirdir , dahi Sabir.

O, şerimin sədəfiydi ,
Zülmkarlar hədəfiydi,
Həm xələf, həm sələf idi,
O, Sabirdir, dahi Sabir.

Bəhri-təvil, zərbü-məsəl ,
Oxu onu , göyə yüksəl .
Aman verməz vaxtsız əcəl,
O, Sabirdir, dahi Sabir.

Əsərləri əlbəəldi,
Çox bahadı , sözü ləldi,

Bu dünyaya o tək gəldi,
O, Sabirdir, dahi Sabir.

Yenə vurduq biz tək səbir,
Günlərimiz də bəd gəlir,
Sabir təkdi hamı bilir,
O, Sabirdir, dahi Sabir.

Sabir babam , çox ucasan,
Yüz əlli illik qocasan,
Şerdə döndün taca sən.
O, Sabirdir, dahi Sabir.

«Tarac olur doğma millət»,
Düz söz üçün yox cəsarət,
Sözlərinə qıl itaət,
O Sabirdir ,dahi Sabir.

Hər misrası bir gül-ənbər,
Zər qədrini bilər zərgər,
Ölməyib Mirzə Ələkbər,
O, Sabirdir, dahi Sabir.

Xalqım verdi sənə qiymət,
Təzim edir Vüqar Əhməd,
Səni sevir hər məmləkət ,
O, Sabirdir, dahi Sabir.
*8.07.2003.*

**SƏYAHƏT**

Dərdə-qəmə baxa-baxa,
Yaşamağım , çox dəhşətdi.
Kaş gedəydim kainata,
Arzum göyə səyahətdi.

Mən gəzəydim kaş ki, Ayda.
Veneraya mən bu yayda,
Deməyin ki, qalmısan sən,
Sən nə hayda , biz nə hayda.

Buludları mən yaraydım,
Ulduzlara əl vuraydım,
Mən günəşə sarılaydım,
Saf bir odda yanaydım mən.

Kədər məni yandırınca,
Günəş məni yandıraydı.
Qanmazları qandırınca,
Allah məni qandıraydı.

Ən müqəddəs bir səyahət,
Göy üzünə ziyarətdi.
İlahiyə bir itaət,
Kainata məhəbbətdi.

Qan udduran – yer üzündə,
Qəlb sındıran bəd sözündə,
Qəddarların kin gözündə,
Arzum göyə səyahətdi.

Qurtarmayır axan qanlar,
Biganədir bu insanlar,
Utanmayır şər atanlar,
Arzum göyə səyahətdi.

Quşa döndər, Ya Rəbb məni,
Göyə uçur bu bədəni,
Eşitmirsən məni nədi?
Arzum göyə səyahətdi.

Bütün işlər çıxır daşdan,
Qurtarmırıq biz savaşdan,
İstər gecə, lap o başdan,
Arzum göyə səyahətdir.

Çay yerinə qəm dəmlədib,
Zülm əlindən lap çərlədim,
Hərdən sanki sərsəmlədim.
Arzum göyə səyahətdi.

Günlər necə keçir boş-boş,
Kimə baxdım gördüm naxoş,
Pay- piyada geyib qaloş,
Arzum göyə səyahətdi.

Xanlıqlara bölünürük,
Dirilirik, ya ölürük,
Gənc yaşında çürüyürük,
Arzum göyə səyahətdi.

Dost-tanışın üzü dönük,
Yazarların sözü sönük,
Sədaqət də incə, tünük,
Arzum göyə səyahətdi.

Yox olmayan xəyanətdi,
Bircə xoş söz-qənimətdi,
Dost axtarram, nə müddətdi,
Arzum göyə səyahətdi.

Axtardığım ədalətdi,
Gəldi-gedər var-dövlətdi,
Məhəbbətim- bir sərvətdi,
Arzum göyə səyahtdi.

İstər çək, ya çəkmə zəhmət,
Onsuz da yox verən qiymət,
Deyir sizə Vüqar Əhməd,
Arzum göyə səyahətdi.
*2.07.2003.*

**ÖMRÜMÜZ**

İnsan oğlu gecə-gündüz əlləşir,
Ruzi üçün onla-bunla dilləşir,
Gah yox olur, gah da qalxır, kimləşir,
Gah zil olur, gah bəm olur taleyi.
Var-dövlətdir dil açdırır pəltəyi.

Bir nəfərin qazancına min şərik,
Kasıb-küsub möhtac olsa dinmərik,
Sahibkara biz bəndələr nökərik,
Gəh Kür olur, gah Nil olur dərdimiz,
Sadaladıq, sona yetsin ömrümüz.

Allah verir ilhamımı, təbimi,
Ərizə tək qəbul eylə şerimi,
Şifahi, yazılı şikayətimi,
Gah gün olur, gah il olur arzumuz,
Şükr etsək də qeybə çıxıb ruzumuz.

Cəfası çox, səfası yox cahanın,
Heç dərdi yox, bəyin, xanın, ağanın,
Qədeş sürür maşınını qağanın,
Gah göl olur, gah sel olur ellərim,
Çox yandırır, vaxtsız solan güllərim.

Pul zibil tək dövlətlinin toyunda,
Bir şöhrət var, həm adında soyunda,

Diplom alıb mal-qaralar, qoyun da,
Gah düz olur, gah yüz olur sözümüz,
El talandı baxa-baxa gözümüz.

Sürünənlər çəkəçəkdir zəhməti,
Gecə-gündüz götürürlər minnəti,
Qınamayın şair Vüqar Əhmədi,
Düşmənlərə gah mil olur şerimiz,
Bizim vardır sənətimiz, elmimiz.
*29.06.2003*

**BU GÖZƏLİN ÜZÜNDƏ**

Könlüm onu soraqlar,
Çəhrayıdır yanaqlar,
Cəzb eləyir dodaqlar,
Bu gözəlin üzündə.

Kiprikləri qıvrılıb,
Onu görən qovrulub,
Bir könüldən vurulub,
Bu gözəlin üzündə.

Bir məna var gözündə,
Məlahət var sözündə,
Gözəllik var üzündə,
Bu gözəlin üzündə.

Eşqin qışı, yazı var,
Gözəllərin nazı var,
Alnında bir yazı var,
Bu gözəlin üzündə.
*29.06.2003*

## KİMƏ DEYİM MƏN ?

Adam tapmıram dərdi bölməyə,
Bir dost tapmıram deyib- gülməyə,
Bir macal yoxdu sakit ölməyə,
Şikayətimi kimə deyim mən?

Bir dərman yoxdu, ağrı kəsməyə,
Bir günüm yoxdu, rüzgar əsməyə,
Rahatlığım da yox, dincəlməyə,
Şikayətimi kimə deyim mən?

Şəfa axtardım, o qaçdı məndən,
Xoşbəxt sandılar uzaqdan-gendən,
Kömək istədim Allahdan, dindən,
Şikayətimi kimə deyim mən?

Qəlbim pünhandı, şadlığım bəlli,
Bir gün görmədim fərli, əməlli,
Qoca anam da verir təsəlli,
Şikayətimi kimə deyim mən?

Hər şerim, sözüm,-göz yaşlarımdı,
Yazdıqlarım da daş-qaşlarımdı,
Xəyallarım da sirdaşlarımdı,
Şikayətimi kimə deyim mən?

Xırda bir iş də demə asandı,
Asan işləri mən çətin sandım,
Əzablardan da vallah usandım,
Şikayətimi kimə deyim mən?

Nə qohumlarım, nə ellilərim,
Vəzifəsizdir həmyerlilərim,

Düzəlməyir heç bu gün işlərim,
Şikayətimi kimə deyim mən?

Mən bakılı yox daş olaydım kaş,
Haraya getsəm yollarımda daş,
Şəhərlilərin gözlərində yaş,
Şikayətimi kimə deyim mən?

Mən ağac deyil, peyvənd budağam,
Öz şəhərimdə sanki qonağam,
Məni biçirlər, otam, alağam
Şikayətimi kimə deyim mən?

Qarabağ peşkəş oldu yağıya,
Yeyilən çörək döndü ağuya,
Qaçqınlar dərdi dedi ağıya,
Şikayətimi kimə deyim mən?

Necə qaradır gün-güzaranım,
Candan getməyir dərdim-azarım,
Od tutub yanır qara bazarım,
Şikayətimi kimə deyim mən?

Bir gözüm gülür, biri qəmlidi,
Gözlərim kimi qəlbim nəmlidi,
Mənim göz yaşım Kürün selidi,
Şikayətimi kimə deyim mən?

Rəhimli olun ay yabançılar,
Əlinizdədir vuran qamçılar,
Şirin günlər yox, çoxdur acılar,
Şikayətimi kimə deyim mən?

Allah bizimlə, çəksək də zillət,
Çox getməz belə, qəm çəkməz millət,

Türk oğlu Türkdü, bu Vüqar Əhməd,
Vətəni vahid edəcəyəm mən.
*4.07.2003*

**SƏNİ SORAQLAR**

Gecəm, gündüzüm,
Gözlərim, üzüm,
Ləpirim, izim,
Səni soraqlar.

Yaman dərd çəkdim,
Tənhaydım, təkdim,
Xəyalım, fikrim,
Səni soraqlar.

Hara boylandım,
Qəmli dayandım,
İçilən andım,
Səni soraqlar.

Vallah talandım,
Dərdə calandım,
Dandar dalanım,
Səni soraqlar.

Yarım jananım,
Eşqin, cahanım,
Zənnim, gümanım,
Səni soraqlar.

Yollarda qar var,
Yol dedim hamar.
Bu şair Vüqar
Səni soraqlar.

## YAŞADIR BİZİ

Allahıma ibadət,
Çətinliyə cəsarət,
Sevgilimə məhəbbət,
Bir az yaşadır bizi.

Bir əbədi təskinlik,
Əyilməzlik, mətinlik,
Dillərdəki şirinlik,
Bir az yaşadır bizi.

Doğmaların istəyi,
Düşmənlərin pisliyi,
Yarın tez-tez küsməyi,
Bir az yaşadır bizi.

Vətənimə sədaqət,
Balalardır əmanət,
Xoş xəyallı səyahət,
Bir az yaşadır bizi.

Yaxşı dostun qayğısı,
Sadə xalqın sayqısı,
Muğam səsi, çalğısı,
Bir az yaşadır bizi.

Şirin-şirin arzular,
Kəsik-kəsik ruzular,
Nəğmə dolu yazılar
Bir az yaşadır bizi.

## SABAH NECƏ OLACAQ?

Bu geyənin sükutu
Bir Allah bilir, sabah necə olacaq?
Xəyallarım didərgin,
Arzularım nə zəngin.
Yenə gün doğacaq,
Dünya bizim olacaq.
İntizarlı arzular,
Cücərməmiş solacaq.
Dostlar üzə güləcək.
Bir çoxları yenə də
Ruha dönəcək.
Gecənin sükutu, Hamı yatıb.
Tələsmirəm yatmağa.
Dərdi, qəmi, xəyalı, ümidi
belə tez atmağa.
Sabah işlər başlayacaq,
bir-birini satmağa,
Dostum Rafiq otururdu
yerində yatmağa.
Ürəyim gəlmir kimisə ağlatmağa.
Sevinmək istəyirəm.
Allah, sevindir məni
Xoşbəxtə döndər məni.
Mən də sevinim, gülüm.
Şad xəbər yaysın dilim
Yaratmısan, sevindir,
Ay gözəl Allah.
Bəndələri geyindir,
Gözəl olsun hər sabah.
İşıqlı sabah olsun.
Ömrümüzdə «ah» olsun.
Yaxşıları sağ olsun.
Qoy bütün insanlar.

Yaxşı işdən yorulsun.
Yorulsun, evə güclə gəlsin.
Salam verib, salam alıb.
Evdəkilərsə qalib, görsün,
Görsün ki, budur səadət.
Əbədidir məhəbbət
Gecənin sükutu
Oğlum Hüseyn ağlayıb
Pozdu bu sükutu.
-Bibi hanı, - deyə ağladı.
Anası oyanıb, məni baxışlarla danladı.
Yəni yenə də oturmusan bayquş kimi
Xəyallarım uçub gedir quş kimi.
Qızım Alma xəstədir
Uşaqlar nasazlasa,
Vallah mənə qəsd edir.
Onların sağlamlığı.
Elə mənə bəs edir.
Arzularım səs edir.
İllər yaman nəs gedir.
Düşüncələr xəstədir.
Yaltaqlığı yoxdur,
Həddi-hüdudu.
Nəfəsimiz qəm udur
Həyat yəqin budur.
Gecənin sükutu.
Pozulmur daha.
Hələ çox var sabaha.
İnsan ucuz, ya baha?
Hər kəs bilir qiymətini,
Ucuz insan
Çox edir ziynətini.
Məkrllilər gizlədir,
Qəlbində niyyətini.
Asan deyildir inanın,

Ömür boyu saxlayın.
El içində hörmətini.
Hünərin var vəzifəsiz,
Qazan hörməti.
Çək zəhməti.
Kasıba əl tut xəlvəti.
Qoyma boynuna minnəti.
Olsun sözünün təravəti
Səsinin məlahəti.
Uzaq eylə cəhaləti.
Gecənin sükutu, külək güclənir.
Göylər qəmlənir, fikirlər cəmlənir.
Vüqar Əhməd dəmlənir siqaretdən aləm zəhərlənir.
Başım gicəllənir.
Gecənin sükutu.
Bu günki gecənin sükutu.
Şerimin sükutu.
Görəsən kim qaldıracaq,
Mən öləndə tabutu…
Siqaret çəkdim bir qutu.
Gecənin sükutu.
Gecəniz xeyrə qalsın.
Bu millət zəfər çalsın.
*07.07.2003*

## AXTARDIM SƏNİ

Mənə inanın,
Yoxdur yalanım,
Mənim cananım,
Axtardım səni.

Mən tək sən də sev,
Quraq qoşa ev,

Bir əbədi kef,
Axtardım səni.

Hanı duyanım,
Eşqlə oyanım,
Mənim sayanım,
Axtardım səni.

## ACİZƏM

Gündüzlər bir qəhrəman, hünərli,
Gecələrsə xəyalpərəst, acizəm,
Gün - görmədim, fərli - başlı, əməlli,
Mən gecələr sanki lalam, səssizəm.

Gecələr pərişan, dərdli, fikirli,
Evdəkilər gözün mənə dikirdi,
Sirdaşlarım mən çəkəni çəkirdi,
Nə yaxşı ki, nəğməmdə var möcüzəm.

Mey  içmirəm, dərd çəkməyim, kef edim,
Hər günümü şənliklərə qərq edim,
Gərək elə xırda şeyi dərd edim,
Düz işlərim bəd gətirərsə acizəm.

Faciəyə şahid olan dənizəm,
Dərd daşıyan qaravaşam, kənizəm,
Şükrlər ki, sevinirəm ona ki
El-obada mən hamıya əzizəm.
*9.12.2002*

## MƏNİ

Süz qədəhə iç məni,
Gəzək çölü, çəməni,
Evimizdən biç məni,
Seçdim səni, sev məni.

Biganəlik qəmlədir,
Alın yazım sənlədir,
Sevməməyin çərlədir,
Sevdim səni, sev məni.

Bir gülümsə üzümə,
Şirin söz de sözümə
Bir nəzər sal gözümə,
Sevdim səni, sev məni.

Gözəllərin gözüyəm,
Məhəbbətin özüyəm,
Nəğmə dolu sözüyəm,
Sevdim səni, sev məni.
*6.12.2002*

## BİR OLAQ

İstəyirəm gecə-gündüz hər zaman,
Düşünəsən ancaq məni, sən hər an,
Uzaq getmə, gəl üzbəüz bir dayan,
Gecə-gündüz birgə olaq, bir olaq.

Taleyimiz qoşa gəlir, cüt gəlir,
Yolumuzda kaş gələydi cüt səbir,
Biz öləndə qazılacaq cüt qəbir,
O dünyada birgə olaq, bir olaq.

İstəyirəm elə baxım gözünə,
Mən möhtacam pıçıltılı sözünə,
Nolar, məni nişanlı seç özünə,
Gecə-gündüz birgə olaq, bir olaq.

Qanın şirin, özün şirin, şəkərim,
Hüsnü gözəl, gecə-gündüz qəmərim,
Səni görcək qeybə çıxar kədərim,
Gecə-gündüz birgə olaq, bir olaq.
*9.12.2002*

**MƏNƏM (DUET)**

Oğlan:
Küskün olma, gəl olma sən pərişan,
Bir oğlan var, sənə necə yaraşan,
Gətirəcək o səninçin toy-nişan,
Bil ki, mənəm həmin oğlan bil mənəm.

Qız:
Göndər elçi sonra danış ürəkdən,
Uğur istə, xeyir istə fələkdən,
Yalan desən, xoşum gəlmir kələkdən,
O qız mənəm, səni sevən qız mənəm.

Oğlan:
Anam - bacım xonça - nabat düzəldir,
Onlar bilir gəlinləri gözəldir,
Bu dünyada məhbbətim əzəldir,
Bil ki, mənəm, səni sevən, bil mənəm.

Qız:
Bir arzum var toyda muğam oxunsun,
Yox söyləmə, ürəyimə toxunsun,

Muğamlardan sanki çələng toxunsun,
Toyumuzda qoy xanəndə oxusun.

Oğlan - Qız - Nəqarət:
Taleyimə sənin adın yazılıb,
Evimizin bünövrəsi qazılıb,
Bir kəs deməz səni sevən uduzub,
Səni sevən, mənəm, mənəm, bil mənəm.
*9.12.2002*

## İSTƏDİM

Özümə Allahdan hər nə istədim,
Oldu da, olmadı yenə küsmədim,
Dostu təriflədim, pisi pislədim,
Səni özümdən də mən çox istədim.

Sənsiz bir qapını açıb döymədim,
Özümü çəkmədim, dartıb öymədim,
Səni danlamadım, səni söymədim,
Səni özümdən də mən çox istədim.

Vəfa görməyəndə yanıb göynədim,
Əynimə dar gəldi iri köynəyim,
Bilsəm ki, tənhayam, sən-sən köməyim,
Səni özümdən də mən çox istədim.

Hərdəmxəyal olma, etibarlı ol,
Min dəfə söylədim, mən sənə min yol,
Taleyimizdə var işıqlı bir yol,
Səni özümdən də mən çox istədim.
*10.12.2002*

## BAĞIŞLA

Günahımı bəlkə yuyum yağışla,
Etiraf edirəm məsum baxışla,
Gərək üzr istiyəm sözlə, çıxışla,
Bağışla sən günahımı bağışla.

Bica yerə dəymişəmsə xətrinə,
Ətrin hopub şerimin hər sətrinə,
Bağışla sən məhəbbətin xətrinə,
Bağışla sən günahımı bağışla.

O düşməndi düşməniylə barışmaz,
Kin saxlama sevənlərə yaraşmaz,
Ətlə dırnaq ayırsan da ayrılmaz,
Bağışla sən, günahımı bağışla.

Bağışlayan, əhf edəndi Allahım,
Bağışla sən, xoş açılan sabahım,
Göydə Allah, yerdə sənsən pənahım,
Bağışla sən, günahımı bağışla.

Əvvəlki tək gülümsə gəl, üzümə,
"Can" - deyərəm bir cavab ver sözümə,
Hərarətə, sevgiylə bax gözümə,
Bağışla sən, günahımı, bağışla.

Niyə görə ayrılığı dərd edək,
Keşkə yenə büsələrə qərq edək,
Sayımızı biz iki yox, dörd edək,
Bağışla sən, günahımı bağışla.

Bağışlanmaz səhvim varsa, deməræm,
Xəcalətdən mən sağ ikən ölərəm,

Bilirsən ki, günahım az, bir kərəm,
Bağışla sən, günahımı bağışla.

Sevirsənsə qızmağın da tez soyar,
Sevişənlər bir-birinə göz qoyar,
Mən bilirdim eşqimizə göz dəyər,
Bağışla sən, günahımı bağışla.

## GÖRMƏYƏ TƏLƏSİR HAMI İZZƏTİ

Sabunçuda xəstəxana alışır,
Bura gələn bir-birilə yarışır,
Küsülülər gəlir burda barışır,
Görməyə tələsir hamı İzzəti.

Yüzüncü palata dolur, boşalır,
İnsan axınından aləm qarışır,
Buraya gəlməyə hamı çalışır,
Görməyə tələsir, hamı İzzəti.

Dostlar çətin gündə tanınır, bilin,
İynə vursan çıxmaz, qanı Şahinin.
Nəhayət, dost tapdı İzzət özünə,
O çoxdan möhtacdı dostun sözünə.
Qubadlı balası igid oğlandı,
Sözü işarədən necə qanandı,
İzzət çarpayıya düşəndən bəri,
Onun başlayıbdır qəmli günləri.
İzzətlə dostluğu şərəfdir ona,
İlqar tək dostu da vardır İzzətin,
Sanki pəhləvandır, çoxdur qüvvəti,
Anarla, Ceyhun da yoldaşlarıdı,
Kim əziyyət çəkirsə qardaşlarıdı.

Tehran. Sübh vaxtı. Yatmış idim hoteldə,
Telefon zəng çaldı mən nə halətdə?
Uşaqların anasıydı zəng çalan,
Gözü yaşlı, için-için ağlayan.
Dedi: - Vüqar, İzzət qəza eləyib,
Şükr olsun canı sağdı ölməyib,
Ayaq sınıb, üzü gözü əzilib,
Yazıq uşaq ağrılara çox dözüb.
Hönkür - hönkür ağlayırdı Səbinə,
Bir təskinlik verirdi o qəlbinə.

Yer fırlandı, göy fırlandı başıma,
Dostlar baxdı dayanmaz göz yaşıma,
İzzət qoymamışdı:- demə Vüqara,
Dözə bilməz Vüqar dərdə, qubara.
Səhər vardı konfransda məruzəm,
Bir də gördüm sanki lalam, səssizəm.
Kirvəm dedi fikr eləmə düzələr,
O sağalar, yenə toyları bəzər,
Birtəhərnən biz dəyişdik bileti,
Sidq - ürəknən orda verdik rüşvəti,
Gecə ikən gəldik xəstəxanaya,
İlk rast oldum gözü yaşlı anaya.
Yataqdaydı ellərimin İzzəti,
Matəmdəydi müğənnilik sənəti.
O ağladı, mən ağladım ürəkdən,
Şəfalar dilədim ona fələkdən.
Yataqdaydı Hüseynimin dayısı,
Onu sevir bu dünyanın yarısı
Biz deyilik yeznə-qayın, qardaşıq,
Dostluğumuz bu ellərə yaraşıq.

Ziyarətə gəlir bütün el - oba,
Gözü yaşlı gəzir o Nalus baba
Gözəllərin gözü qalıb burada,

Gözəllərin özü qalır burada.
Müğənnilər, sənətçilər gəlirlər,
Üz-gözündən onu öpüb gedirlər.
Azərbaycan xalqı sevir İzzəti,

Gündən - günə artır onun şöhrəti,
Avariya. Bu taleyin töhməti,
Allah qoru bizim gözəl İzzəti,
Toy görməyib, şənliyimiz qabaqda,
Hələ neçə nəğmə qalıb dodaqda,
İmamlara bənzədirlər üzünü,
Vüqar Əhməd sənin üçün hey yazır,

Şerləri, nəğmələri, sözünü,
Diqqətli ol, ay İzzətim, tərlanım,
“Maksima”yla quş tək süzən tərlanım.
Gəl özünü qoru gözdən- nəzərdən,
Neçə-neçə əxlaqı yox “gözəldən”,
Nə sözün var qulağma de xəlvəti
Mən hazıram çəkim hər cür zəhməti.
Bu xalqım tək mən də sevdim İzzəti,
Böyük tutdu İzzət Vüqar Əhmədi,
Vüqar Əhməd qardaş bildi İzzəti.
O Almamın, Hüseynimin dayısı,
Onu sevir bu millətin hamısı.

**A DOSTLAR!**

Şahlar bala şəninədir sözlərim,
Makif qardaş aydın olsun gözlərin,
Hər yandadır şan-şöhrəti sizlərin,
Mübarəkdir bu ad günü a dostlar.

Əmin Yəhya, əmin Kamil sevinir,
İzzət bəyim təzə libas geyinir,

Sevinciniz gözünüzdən bilinir,
Mübarəkdir bu ad günü a dostlar.
Bakı - Şirvan bayram edir şənliyi,
Gözə çarpır el - obanın birliyi,
Bir tarixdi bu Şahların bəyliyi,
Mübarəkdir bu ad günü a dostlar.

Əmin Yusif arzu dilər fələkdən,
Şahlar bala seçilirsən mələkdən,
Vüqar Əhməd təbrik deyir ürəkdən,
Mübarəkdir bu ad günü a dostlar.

**TƏNHALIQ**

Tənha hiss edirəm hey özümü,
Heç bilmirəm son zamanlar
danışdığımı, sözümü,
Sıxılıram nədənsə,
Ürəyim mərhəm olmur bir kəsə.
Nəsə…
Hey möhtacam müqəddəs bir səsə,
Allah deyib durmuşam,
Allah, Allah,
La ilahilləlah,
Vallah pozulub əsəblərim,
Məhəccərə düzülüb dərmanlarım,
həblərim,
Həyat mənə qəsd eləyir,
Dərdlər məni əyir,
İnamımı Allaha bağlamışam,
Tənhalıqda ağlamışam,
Utanıram ağlamağa el içində,
Ağlayıram el üçün də.
Bacı dərdi, qardaş dərdi
TORPAQ dərdi,

Bilmirəm, ailəmizdən səadəti
kim dərdi,
Heç gülməyir üzümüz,
Qara keçir günümüz,
Kəsilib səs-küyümüz,
İstəyirəm tənhalıq,
Tək istəyirəm olmaq
Xəyallara dalmaq
Kaş bəxtimiz güləydi,
Bir ürəkdən güləydim,
Anama qurban olum,
Ömrü uzun olaydı
Bircə bu bəsdir mənə,
Tənha olmaram
Söz verirəm kişi tək,
Dünya yalan dünyadı,
Bizə qalan dünyadı.

**MÜBARƏK**
*(Cənub dostum Eldar Əşrəfinin qızının toyunda söylənmişdir)*

İnsandır dünyanın varı, əşrəfi,
Bir gözəl insandır Eldar Əşrəfi.
Tarzənin tarının sənsən sədəfi,
Nazəninlə Əhməd toyun mübarək !

Həvəslə götürdüm əlimə dəfi,
Yaxşı insanların sənsən sələfi,
Dostluq dünyasının Kəbə, Nəcəfi,
Nəzaninlə Əhməd toyun mübarək !

Bəydadaş oğlundu, Nazənin qızın,
Bakıya da gəlir gözəl avazın,

Suyundan içmisən dərdli Arazın,
Nazəninlə Əhməd toyun mübarək !

Cavad, Cabbar, Şahpur qardaşlarındı,
Əliağa, Nəsiri sirdaşlarındı,
Muğam üzüyünün daş-qaşlarıdı,
Nazəninlə Əhməd Toyun mübarək !

«Persiya» dostların görüş yeridi,
Burada həsrətin buzu əridi,
Ağabağır kəndi doğma yerindi,
Nazəninlə Əhməd toyun mübarək !

Bakı, Gəncə, Təbriz, Urmiyə, Zəncan,
Bu toyda birləşir Azəribaycan,
Kim səni çağırsa söyrəyirsən: - «can»
Nazəninlə Əhməd toyun mübarək !

Əlin səxavətli, qəlbin nəhəngdi,
Ərməğan gətirdik nəğmə çələngi,
Qarabağ udacaq savaşı, çəngi,
Nazəninlə Əhməd toyun mübarək !

Firuzun tarının həvəskarısan,
Əlibaba müəllimin dostu, yarısan,
Fərman dayı içsə xilaskarısan,
Nazəninlə Əhməd toyun mübarək !

Böyükağa dayını həsrət qoymadın,
Bakıya gətirdin bizdən doymadın,
Dünya malına heç vaxt uymadın,
Nazəninlə Əhməd toyun mübarək !

Vətəndən kim gəlsə edirsən kömək,
Səninlə bahəmdi hər vaxt Siyamək,

Kasıba-kusuba verirsən çörək,
Nazəninlə Əhməd toyun mübarək !

Qızı verməmisən uzağa, yada,
Əliağa dostundu, olmusuz quda,
Alim Gəncəlini salmısan yada,
Nazəninlə Əhməd toyun mübarək !

Çox çəkmisən bizlər üçün zəhməti.
Toya çağırmısan Vüqar Əhmədi,
İndisə gətir ver nəmər, xələti,
Nazəninlə Əhməd toyun mübarək !

## QONAĞAM

Nə loğmanam, nə təbibəm,
Nə yerliyəm, nə qəribəm.
Dəvəsi ölmüş ərəbəm,
Bu dünyada bir qonağam.

Bir dərvişəm bu dünyada,
Zəm-zəm içdim mən röyada.
Əyilmərəm heç vaxt yada,
Bu dünyada bir qonağam.

Zəmanənin nəbzi itib,
Gül yerinə qanqal bitib.
Kədər məni əsir edib,
Bu dünyada bir qonağam.

Bu dünya bir səyahətdi,
Düz söz demək – cəsarətdi.
Sormayın ki, hara getdi,
Bu dünyada bir qonağam.

## SƏN YANIMDA OLANDA

Sənsizlik mənə qənim,
Od tutur yanır içim.
Sanki, bu dünya mənim,
Sən yanımda olanda.

Dünyanın xoşbəxtiyəm,
Mən Süleyman taxtıyam,
Məhəbbət paytaxtıyam,
Sən yanımda olanda.

Adın düşmür dilimdən,
Əksin düşmür əlimdən.
Uzağam qəmlərimdən,
Sən yanımda olanda.

Mən necə sevinirəm,
Eşqimlə öyünürəm,
Şahanə geyinirəm
Sən yanımda olanda.

Səadəti görürəm,
Sənə nəğmə deyirəm,
Saçlarını hörürəm
Sən yanımda olanda.

## YALAN DÜNYA SƏNƏ QALSIN

Duyan qəlbim səni ansın,
Eşq odunda alovlansıın.
Yalan dünya sənə qalsın,
Eşq dünyası mənim olsun.

Sevən könül nurla dolsun,
Ömrümüüzə sevinc olsun,
Kaş yalanlar yalan olsun,
Eşq dünyası mənim olsun.

Qədrin bilək xoş anların,
Könül sevən insanların.
Sonu yoxdu yalanların,
Eşq dünyası mənim olsun.

**MƏHƏBBƏT**

Məhəbbətdi vücudumun ilhamı,
Bir məlhəmdi ona möhtacdı hamı,
Rahat qoymur eşqinə qul olanı,
Allah sevir məhəbbəti duyanı.

Gözəllərin ən gözəli məhəbbət,
Şairlərin şah qəzəli məhəbbət,
İnsanların bər-bəzəyi məhəbbət,
Bu qəlbimin ehtiyacı məhəbbət.

Həyata inamım məhəbbətdədir,
Sevgilimlə qoşa səyahətdədir,
Canımız ona da itaətdədir,
Şirin röyam, məhəbbətdir, məhəbbət.

**TÖVBƏ**
*(nəğmə)*

Dərdlərimiz solmaz çiçək,
Qəmlərimiz ləçək-ləçək.
Kədərimiz ətək-ətək,
Sevincimiz çıxıb qeybə.
Şadlıq yoxdur, tövbə, tövbə.

Söz qılıncı dəyir qəlbə,
Sevinmə – çaldın qələbə,
Axirətə vardır hələ.
Günahını sən et, tövbə,
Eylə tövbə, eylə tövbə.

Çiyninə sal dolu heybə,
Rast gələnə salam söylə.
Kasıb gördün: saxla, əylə,
Səxavətlə ruzi gələ,
Xəsisliyi eylə tövbə.

*Nəqarət:*
Yalanları eylə, tövbə,
Xəyanəti eylə tövbə,
Qəbahəti eylə tövbə.
Tövbə etmə məhəbbəti,
«Eşq» adlı bir səltənəti.

Deyilsənsə sən düşgünü,
Tövbə etmə bu içgini,
Bir də içsən haram olar,
Cavan canın vaxtsız solar,
İradən var - budur tövbə.

Tövbə yoxdur adətkara,
Pulları qoysa qumara,
Sonra da qaldı avara,
Rüşvətxora yoxdur tövbə,
Rüşvət alan, sən et tövbə.
*15.02.2002*

## HEYFSİLƏNİRƏM

Gözəl günlərimə fərəhlənirəm,
Qəmli günlərimə kədərlənirəm,
Gah şadlanıram mən, gah qəmlənirəm,
Boş keçən günümə heyfsilənirəm.

Naxələf əməli yandırır məni,
Dostun məhəbbəti qandırır məni.
Haqsız atılan şər sındırır məni,
Tez solan gülümə heyfsilənirəm.

Vaxtında yetməyən arzularıma,
Dadıma gəlməyən ruzularıma,
Uzaqda gizlənən ulduzlarıma,
Bu susan ünümə heyfsilənirəm.

Hansısa bədbəxtin bəd rüzgarına,
Şəhid anasının ahü-zarına,
Cavan məzarının «laləzarına»,
Dərdlinin qəminə heyfsilənirəm.

Arzum gec yetişir, heç sevinmirəm,
Dost-tanışdan fərqli şey geyinmirəm.
Nakamlar yanında mən öyünmürəm,
Düz sözün bəminə heyfsilənirəm.

Deyirəm ki, əlin duzu yox imiş,
O bədbəxtdə tamam ruzu yox imiş.
Qəlbə dəyən sözdən olan ox imiş,
Dinsizin dininə heyfsilənirəm.

İstəyirəm qədir ağacı əkim mən,
Neynəyim ki, göz yaşları töküm mən?

Yoxsa elə torpaq alta köçüm mən,
Mən dostun pisinə heyfsilənirəm.

Qəlbimdə qırılan bu sarı simə,
Sevilməyən acı, zəhər dilimə,
Dərmədiyim kolda qalan gülümə,
Boşboğaz sözünə heyfsilənirəm.

Əsir düşən, işğal olan Vətənə,
Yerli-yersiz ona-buna yetənə,
Qəlbi mənlə, məndən uzaq ötənə,
Görməyən gözünə heyfsilənirəm.

Yaxşılığa yamanlığı görəndə,
Bilərəkdən yaxşılıq etməyəndə,
Düz yerinə hamı yalan deyəndə,
Millətin gününə heyfsilənirəm.

Unudulan nəğmələrə, muğama,
Bir səs gəlir sakit-sakit qulağma.
Vüqar Əhməd, bəsdi yetər, ağlama,
Eh, sənin özünə heyfsilənirəm.

**HARDADIR?**

Biganəlik vücudumu yandırır,
Vəfasızlıq mənə dəyir, sındırır.
Xəyalımda xoş günlərim canlanır,
Oğurlanmış səadətim hardadır?

Səadəti soraqlayır gözlərim,
Arzu dolu nəğmə olur sözlərim.
Sönən ümid, sönmə, yanır gözlərim,
O qayğısız günlər indi hardadır?

Hər nə sönsə, məhəbbətim əbədi,
Qəlbim mənə pıçıldadı, o dedi:
Ruhdan düşmə, ürəkli ol, bu nədi?
Sən bilirsən məhəbbətin hardadır.

Vüqar Əhməd, sevir səni Vətənin,
Çınqılısan, bir daşısan Vətənin.
Əbədidir məhəbbəti Vətənin,
İndi bildim səadətim hardadır.

**DƏRD YAĞIŞI**

Dərdi yaşayarlar, dərdi deməzlər,
Yaşanan dərdi sevinc əvəzlər,
Dərdli gözdən yaşı birdən silməzlər,
Mənim göz yaşlarım dərd yağışıdı.

Namərddən uzaq dur, bərk yapış mərddən,
Özgə dərdinə də üz tut bir hərdən.
Ağlasam şadlıqdan, ya da ki, dərddən,
Mənim göz yaşlarım dərd yağışıdı.

Taleyim kədərli, eşqim kədərli,
Qəmli günlərim də gör nə qədərdi,
Dərdli günlərim də sanma hədərdi,
Mənim göz yaşlarım dərd yağışıdı.

Sevinc alqışdırsa, dərd də qarğışdı,
Bu da bir tale, bu bir naxışdı.
Dərdli buludlar da bax, dağılışdı,
Mənim göz yaşlarım dərd yağışıdı.

Dərdli günlərimin dərdini çəkdim,
Qəlbimdə zülümdən mən ağac əkdim.
Bir Allah bilir ki, mən nələr çəkdim,
Mənim göz yaşlarım dərd yağışıdı.

## SƏADƏT HARDADIR?

Kimi qan qusur bir qızıl teştə,
Kimi sahibdir cənnət-behiştə.
Dua yazdıran var molla, keşişə,
Səadət uzaqda, görən hardadır?

Cənnət, cəhənnəm də bu dünyadadır,
Ümid xəyallarda,ya röyadadır,
Xoş gün nə bu tayda, nə o taydadır,
Səadət uzaqda, görən hərdadır?

Neyləyim, kədərlər başım üstədir,
Dərdlilər can üstə ağır xəstədir.
Bəxtindən gileyli dəstə-dəstədir,
Səadət uzaqda, görən hardadır?

Göz yaşım qəlbimə, içimə axır,
Qəlbimi bu yaşlar doğrayır, cızır.
Mənim ürəyimdə qəm şimşək çaxır,
Səadət uzaqda, görən hardadır?

Bircə ona şükür, ölmürük hələ,
Dünyanı bürüyüb daşqın, zəlzələ.
Vüqar Əhməd dedi: -dostlar da belə
Səadət uzaqda, görən hardadır?

## BƏSİMDİ

İldə bir yol gülə bilsəm ürəkdən,
Bircə günlük uzaq olsam kələkdən,
Bir arzumu ala bilsəm fələkdən,
Şükr edərəm mən buna da, bəsimdi.

Qapılara bir elçi tək gedəydim,
Oğul toyu, qız toyunu görəydim,
Sevgilimi mən əbədi görəydim,
Şükr edərəm mən buna da, bəsimdi.

Qarabağım yenə mənim olaydı,
Düşmənlərim cəhənnəmdə yanaydı.
Vətən məni ona oğul sanaydı,
Şükr edərəm mən buna da, bəsimdi.

Dərdim, qəmim necə mənə qəsd edər,
Sağalaydı elimizdə xəstələr,
Şöhrət tapa mən yazdığım bəstələr,
Şükr edərəm mən buna da, bəsimdi.

## MƏN ƏYİLMƏZ BİR DAĞAM

Düşdüm dərdə, həmdəm oldum qüssəyə,
Çevrilsəm də dincəlməyən xəstəyə.
Ruzu üçün əl açmadım kimsəyə,
Vüqarlıyam, mən əyilməz bir dağam.

Dərd-sərimi öz-özümə söylədim,
Nəhs gətirər hərdən, artıq gülmədim.
Əllərimin duzu yoxdur, neyləyim?
Vüqarlıyam, mən əyilməz bir dağam.

Çörəyimi itirirlər, dinmirəm.
Allahımın köməyilə sınmıram,
Düşünməyin, eşq odunda yanmıram,
Vüqarlıyam, mən əyilməz bir dağam.

Qəlbə axan göz yaşıdır sel kimi,
Ömür keçir tufan kimi, yel kimi,
Doğma yoxdur ana kimi, el kimi,
Vəfalıyam, mən əyilməz bir dağam.

## BİLMƏDİN

Mən eşqimi söyləmədim, utandım,
İç dünyamda utanmaqdan usandım.
Kaş biləydin, sənin üçün yarandım.
Sənə olan məhəbbəti bilmədin.

Hərdən elə bilirəm ki, duyursan,
Baxışınla kədərimi yuyursan.
Biganəsən, sən dərimi soyursan,
Sənə olan sədaqəti bilmədin.

Sevməyirsən, səni sevən bir kəsi,
Duymayırsan eşq ətirli bir səsi.
Hər gün görsəm, darıxıram ertəsi,
Mən düşdüyüm qiyaməti, bilmədin.

Yuxularda görüşürəm səninlə,
Xəyallarda öpüşürəm səninlə,
Ürəyimdə döyüşürəm səninlə,
Məndə olan dəyanəti, bilmədin.

Kipriklərin qıvrım-qıvrım qıvrılıb,
Qaşın-gözün gözəllikdən yoğrulub,
Sənin bəxtin mənim üçün doğulub,
Gələcək bir səadəti bilmədin.

Mən «sevirəm», söyləmədim, deməmədim,
Səni görcək danışmadım, dinmədim,
Sənsiz keçən günümə gün, demədim,
Sənə olan itaəti, bilmədin.

Baxışınla məni vurur ildırım,
Əlçatmazsan, bir zirvəsən, sıldırım.
İstəyirəm diziüstə yalvarım,
Sənə olan məhəbbəti, bilmədin.

## MƏHƏBBƏTİMDİ

Yetişir göylərə kədərim, ahım,
Necə narahatdır varlığım, ruhum,
Gözə görünməzdir mənim pənahım,
Mənə həyat verən məhəbbətimdi.

Dünəni, bu günü, həm sabahıyam,
Sevən aşiqlərın şahənşahıyam.
Yarın barmağında üzük qaşıyam,
Mənə həyat verən məhəbbətimdi.

Var-dövlət mənimçin yalnız məhəbbət,
Odur bu dünyada zəngin səltənət,
Sevgi yollarında yoxdur qəbahət,
Mənə həyat verən məhəbbətimdi.

Dünya bir gəzinti, etdik səyahət,
Allaha, sevgiyə edin itaət,
Xəyanət bilməz heç bu Vüqar Əhməd,
Ona həyat verən məhəbbətidi.

## GİZLİ MƏHƏBBƏTİM

Baxışlar sevişir, səssiz danışır,
Vücudum od tutur, eşqdən alışır.
Lal dilim sevgimi deməyir, çaşır.
Gizli məhəbbətim qəlbimdə qalır.

Sevgimiz bəllidir hər ikimizə,
Susmaq kədər olur tək özümüzə,
Xəyal hakim olur gözlərimizə,
Gizli məhəbbətim xəyala dalır.

Başıma haranın daşını töküm,
Gözümdən mən leysan yağışı töküm,
Eşqin ucbatından qul tək diz çöküm,
Gizli məhəbbətim canımı alır.

İntizar qalıram mən bir görüşə,
Adət eyləmişəm bu cür vərdişə,
Canımı verərəm bircə öpüşə,
Gizli məhəbbətim dərd, qəmə salır.

## DEYƏ BİLMİRƏM

Cavan ikən saçlarımda dən oldu,
Ağ saçlarım hey mənə həmdəm oldu.
Ömrüm boyu dərdlərimə tən oldu,
Dərdimi söyləyə, deyə bilmirəm.

Gözümü dikmədim mala, dövlətə,
Heç vaxt uymamışam heç bir sərvətə,
Vicdanı qorudum ta qiyamətə,
Dərdimi söyləyə, deyə bilmirəm.

Dərdlər ağuşunda yaşayıram mən,
Çiynimdə dərd yükü daşıyıram mən.
İnanın, elimçin yaşayıram mən,
Dərdimi söyləyə, deyə bilmirəm.

## SÖZÜNDƏN ÇIXMARAM

Yaman əsəbiyəm, hərdən coşuram,
İlhamım olanda nəğmə qoşuram,
Heç kimi saymayır, həddi aşıram,
Tək sənin sözündən çıxa bilmirəm.

Qəlbimdə düşməni əzib yıxıram,
Bəxtimlə savaşıb şimşək çaxıram.
Özümdən son vaxtlar tez-tez çıxıram,
Tək sənin sözündən çıxa bilmirəm.

Sənsiz özgələrlə gülə bilmirəm,
Gözümün yaşını silə bilmirəm.
Eşqimin gücünü bilə bilmirəm,
Tək sənin sözündən çıxa bilmirəm.

Sənin baxışların qəlbimə məlhəm,
Səninlə olanda heç bilmirəm qəm,
İnan sözlərimə, min dəfə desəm,
Tək sənin sözündən çıxa bilmirəm.

## HAYANA GEDƏSƏN

Ömrün bahar fəsli didərgin düşüb,
Yazında tufandır, qışında yağış.
Yayı da payız tək xəzanlanıbdır,
Bu da bir taledir, bu da bir naxış.

Günəş də, ulduz da, bütün kainat,
Hamının ümidi xoş səs, ündədir.
Yerlər də, göylər də, bütün kainat
İnsan taleyi tək çətin gündədir.

Bu dünya imtahan qarşısındadır,
Bəşər məhvərindən qopubdu, nədi?
Eh… aləm qarışıb, tufandı yenə,
Yaxşılıq, yamanlıq deyil əbədi.

Günəş də ağlayır, Ay da ağlayır,
Leşlər bir yanadır, başlar bir yana.
Analar… həm qışda, yayda ağlayır,
Hayana gedəsən, tale, hayana?

Dərdin batmanları güzərandadır,
İndinin xoşbəxti özü də bədbəxt.
Qızıl teştə qusub firavanlanan
Hardasa, nə vaxtsa bədbəxtdi, bədbəxt.

## MƏN OLMAYANDA

Sözüm nəğmələrdə yaşayacaqdır,
Dostlar xatirələr danışacaqdır.
Yaxınlar od tutub alışacaqdır
Mən dünya dəyişəndə, mən olmayanda.

Görən kitablarım toz basacaqmı?
Yetişməz arzular gül açacaqmı,
Mənsiz ad günlərim heç olacaqmı?
Mən dünya dəyişəndə, mən olmayanda.

Ömrü həsr elədim xalqa, elimə,
Gəlmədi bir yalan kəlmə dilimə.
Günəş hey düşəcək solmaz gülümə,
Mən dünya dəyişəndə, mən olmayanda.

## ZAVAL YOXDU SEVƏNLƏRƏ

Eşqim mənim gözümdədir,
Deyilməyən sözümdədir,
Ləpirimdə, izimdədir,
Zaval yoxdu sevənlərə.

Sevmək – ləziz bir duyğudu,
O ən şirin bir qayğıdı,
Qəh-qəh çəkən qağayıdı,
Zaval yoxdu sevənlərə.

Çıxdım yarla səyahətə,
Çəkildim bir az xəlvətə,
Uyduq şirin bir söhbətə,
Zaval yoxdu sevənlərə.

Yoxdu toydan gözəl adət,
Etdim eşqə mən itaət,
Bir aşiqdi Vüqar Əhməd,
Zaval yoxdu sevənlərə.

**ALLAHIM**

Qəmli baxır dərdi-səri olanlar,
Dərd əlindən vaxtından tez solanlar,
Sevinməsin, bizi dərdə salanlar,
Gec eləyir, güc eləyir Allahım.

Qəmli gözlər gülümsəmir, danışmır,
Öz hayında, heç bir şeyə qarışmır,
Xəyallarda taleyilə barışmır,
Gec eləyir, güc eləyir Allahım.

Tikməyirsən, gəl sındırma qəlbləri,
Sənə nə var, mən atıram həbləri,
Bir gün sən də tapacaqsan dərd-səri,
Gec eləyir, güc eləyir Allahım.

Ağladan da, güldürən də sevinir,
Kimə baxsan ruzu üçün deyinir,
Günahkarlar gözlərindən bilinir,
Gec eləyir, güc eləyir Allahım.

Sevinc odur xoş açıla sabahım,
Nəzərini çox eyləyə pənahım.

Savaşlardan uzaq ola cahanım,
Gec eləyir, güc eləyir Allahım.

Vəfasızın üzü dönük, neyləyək,
Haqq itəndə dil-dodağı, çeynəyək,
Dədəm-babam söyləyəni, söyləyək,
Gec eləyir, güc eləyir Allahım.
*25.04.2002*

## BİLİRƏM Kİ, SEVİRSƏN

Bilirəm ki, sevirsən.
Gülüşünə gülürəm,
Dindirəndə dinirəm,
Sevdiyini demirsən,
Bilirəm ki, sevirsən.

Məhəbbəti görürəm,
Sənsizlikdən ölürəm,
Mən Məcnuna dönürəm,
Bilirəm ki, sevirsən.

Göz yaşımı silirəm,
Nə sən, nə də mən demirəm,
Gözlərindən  bilirəm,
Bilirəm ki, sevirsən.

Gözlər gözə baxanda,
Gözlər şimşək çaxanda,
Gözlərdən yaş axanda,
Bilirəm ki, sevirsən.
*24.06.2002*

## GÖZƏL DÜNYAMIZ

Bir göz qırpımında ötüşür illər,
Hərdən sevinc olur, bol olur qəmim,
Ən böyük mükafat-səhnədə güllər,
Bir də nəğmə yazan doğma qələmim

Şöhrət tapır sözüm nəğmələşəndə,
Gərginəm kədərlə hey əlləşəndə,
Gözəldi bu dünya şerləşəndə,
Sanki bayram olur dost görüşəndə.

Sevgililər eşqi qəlbdən duyanda,
Qohum-qardaş səni hərdən sayanda,
Dərd-kədərin səni tənha qoyanda,
Necə gözəl olur gözəl dünyamız.

Əlim dəysə gündə kişi əlinə,
Dəyməyəndə bil kimsənin qəlbinə
Nəğmə qoşsam sevənlərin şəninə
Necə gözəl olur gözəl dünyamız.
*18.06.2002*

## GÜLNAZ

Şit adamda duz olmaz,
İsti gündə buz olmaz,
İki əlli yüz olmaz,
Nə nazlıdı bu Gülnaz,
Bakıda belə qız olmaz.

Şahzadələr əzəlidi,
Gözəllərin gözəlidi,
Ataların dəcəlidi,
Nə nazlıdı bu Gülnaz,
Bakıda belə qız olmaz.

Ədası var, şivəsi,
Şirin – şəkər şivəsi,
Nəğməlidir xoş səsi,
Nə nazlıdır bu Gülnaz.
Bakıda belə qız olmaz,

Heç kimdən dala qalmaz,
Mirvari suda batmaz,
Cəvahir odda yanmaz,
Nə nazlıdır bu Gülnaz.
Bakıda belə qız olmaz.

## ÇƏKƏN YOXDUR BU DÜNYANIN DƏRDİNİ

Hərə çəkir öz dərdini, qəmini,
Dua edir, göyə açır əlini,
Bəndə tapıb dolanmağın çəmini,
Çəkən yoxdur bu dünyanın dərdini.

İmam Hüseyn od-alovun içində,
Füzuli də qalıb onun küncündə,
Kərbəla da üzür qanın içində,
Çəkən yoxdu bu dünyanın dərdini.

Lənətləyib söyürük bu dünyanı,
Deyirik ki, niyə çoxdur yalanı,
Gizlədirik dilimizdə yalanı,
Çəkən yoxdur bu dünyanı dərdini.

Bəd günündə bu dünyanı pisləyir,
Şad günündə biz dünyanı istəyir,
Silah səsi dünyadan əl çəkməyir,
Çəkən yoxdu bu dünyanın dərdini.
*3.04.2003*

## ƏLACSIZAM

Xoşbəxtlərçin əbədidi səadət,
Bizim üçün bir ovucdu səadət,
Batıb – çıxır, bir ulduzdu səadət.
Səadət də bizə edir xəyanət.

Qəm, kədər də qəlbə edir sirayət.
Ürəyimi çıxar, eylə qiraət,
Günahsızam, Allah sən ver bəraət,
Ömür boyu haqqa etdim itaət.

Xəyallarım edir yenə səyahət,
Yer üzündə necə çoxdur cəhalət,
Əməlimdə bir kəs görməz qəbahət,
Düz söz üçün çatmalıdır cəsarət.

Mən Allaha eyləyirəm ibadət,
Vüqar Əhməd çəkdi qırx il çox zəhmət,
Sağaltmayır dərdlərimi təbabət,
Əlacsızam, oldu məndə qənaət.
*3.04.2003*

## BİLİRLƏR

Becid-becid uçub gedən xəyallar,
Keçdiyim o günləri varaqlar,
Kimin üçün bu dünyada maraq var,
Arzuları çin olanlar bilirlər.

Deyirlər ki, bəxtinizi sınayın,
Bəxti Allah yazır, vallah inanın,
Min bir şirin ləzzəti var dünyanın,
Arzuları çin olanlar bilirlər.

Nə yaxşı ki, məhəbbət var cahanda,
Sevənlərin gözlərinə baxanda,
Bu gözlərdən ildırımlar çaxanda,
Arzuları çin olanlar bilirlər.

Bu dünyanın göz yaşları silinmir,
Bədbəxti də, xoşbəxti də bilinmir,
Xoş günləri bol olanlar deyinmir,
Arzuları çin olanlar bilirlər.

**GECƏLƏR**

Gecələr laldı,
Ümid xəyaldı.
Gecələr bir az
Hərdəmxəyaldı.

Şirin bir xülya,
Həm yuxu, röya.
Bir kəs görmədim
Gecədən doya.

Gecələr ömür
Səhərə dönür.
Yanar ürəklər
Gecələr sönmür.

Bəşər dincələr
Gözəl gecələr.
Ulduzlar yatar
Onda gecələr.

Oğlanlar sevər,
Qızlar incələr.

Məhəbbət olar
Aylı gecələr.

Bəzən düşündüm
Heçdi gecələr.
Nə cür, nə təhər
Keçdi gecələr.

**BULUDSUZ YAĞIŞ**

Göydə bulud görünmür
Çiləyir göydən yağış.
Fəsillər də bilinmir,
Neynək, bu da bir naxış.

Bulud yox, yağış yağır,
Şaxta yox, qar ələnir.
Həyat yolları ağır,
Ömür qəmə bələnir.

Buludsuz yağış ruzu,
Sevişənlərə arzu,
Sayrışır eşq ulduzu,
Göydən yağır yağışlar,
Şimşək çaxır baxışlar.

Qara bulud, qara gün,
Ağ bulud, bəyaz gecə.
Sevənlər qəmgin-qəmgin
Arzulayır xoş gecə.

Gur damcılar ötüşür,
Nur damcılar öpüşür.
Bütün dünya sevinir
Buludsuz yağışlarda.

## SEVƏNLƏRİN

Yaddan çıxır sevənlərin dərdi-qəmi,
Kim deyir ki, sevənlərin vardır qəmi?
Yetişəndə, başlayanda görüş dəmi,
Görüşəndə dünya olur sevənlərin.

Sönməyəcək ömür boyu bu ehtiras,
Qəlbən sevmək olacaqdır onlara xas.
Bu görüş tək unudulmaz görüş olmaz,
Görüşəndə dünya olur sevənlərin.

Bəylə gəlin toy libası geyinəndə,
Ana, ata oğul, qızla öyünəndə,
Bu cavanlar varlığına sevinəndə,
Görüşəndə dünya olur sevənlərin.

Vaxt ötüşür, oğul-uşaq yetirirlər,
Doğmaları, qohumları itirirlər.
Bax beləcə ömrü sona yetirirlər,
O dünyada dünya olur sevənlərin.

## GÖYLƏR NECƏ PƏRİŞAN

Göyün üzü tutulub,
Sanki göylər yorulub,
Duman olub, çən olub,
Göylər necə pərişan.

Göy dözmür yer dərdinə,
Ağlar dünya qəminə.
Nəsə dəyib qəlbinə,
Göylər necə pərişan.

Bu dünyadan qaçaydım,
Kaş ki göyə uçaydım.
Mən də işıq saçaydım,
Göylər necə pərişan.

Göydən yağan yağışlar
Asimanın göz yaşı.
Mənə dünya bağışlar
Göy üzündə naxışlar.

Necə tutur söhbətim,
Eşitmirəm qeybəti.
Dinlə Vüqar Əhmədi,
Göylər necə pərişan.

## EŞQİM, SEVGİM, MƏHƏBBƏTİM

Sevgi deyil bir əyləncə,
Nə xəyaldı, nə düşüncə,
O yaranıb əvvəl, öncə,
Eşqim, sevgim, məhəbbətim.

Həyatımdı can cövhərim,
Ən qiymətli bir gövhərim,
Nazənindi o dilbərim,
Eşqim, sevgim, məhəbbətim.

O sönəndə artır qəmim,
Mənim odur səltənətim.
Vardır eşqə itaətim,
Eşqim, sevgim, məhəbbətim.

Sən təbibsiz əlacımsan,
Ömür boyu ehtiyacım,
Varlığına çox möhtacam,
Eşqim, sevgim, məhəbbətim.

## AĞ DÜNYAM MƏNİM

Göydən qar yağır,
Sanki bir nağıl,
Hər yan nur saçır,
Ağ dünyam mənim.

Yerlər sürüşkən,
Göylər dəyişkən,
Necə gözəldi
Ağ dünyam mənim.

Yoxdu heç qəmim,
İstək, tələbim,
Ömrü bəzədi
Ağ dünyam mənim.

Xəyalda bir qız
Tənhadı, yalnız.
Ağappaq ulduz
Məni gözləyir.

Qar giləlzənər,
Qarlı dənələr,
Gülür, sevinir
Ağ dünyam mənim.

Qəlbdə məhəbbət,
Gizlicə, xəlvət
Gözüm seyr edir,
Ağ dünyam mənim.

## XƏZRİ

Xəzri mavi dənizdən,
Xəzri qumlu sahildən,
Uzaq, ucqar ellərdən,
Okeandan, göllərdən
Titrək əsən küləkdir.

Xəzri ağlayar, gülər,
Səsini hamı dinlər.
Xəzrili anlar, günlər.
Dənizi sevən bilər
Xəzri də nə deməkdir.

Xəzri qızmar Günəşdir,
Od-alov, bir atəşdir,
Gilavarla qardaşdır,
Xəzərimə sirdaşdır,
Təbiətə köməkdir.

Xəzri tufan, qasırğa,
Sahillərlə bir qovğa,
Güc yetirər o dağa,
Balıq qovar qırağa,
Dənizli bir küləkdir.

## YAĞIŞ

Yağış yağır, torpaq ətri duyuruq,
Qəlbimizi saf sularda yuyuruq.
İlahidən gəlir nida - buyuruq,
Arzunuzu siz söyləyin yağışa.

Yağışı vəsf edib şair Müşfiqim,
Rəqs eləyir nur damcılar yağışda.

Gur damcılar süzüləndə yanaqdan
Sevişərlər sevənlər ilk baxışda.

Yağış ruzi, bərəkətdi,
Gur yağışda fəğan etdim,
Yağış da bir qənimətdi,
Arzunuzu siz söyləyin yağışa.

Narın yağış sərinlikdir ürəyə,
Leysan yağış sillə vurar küləyə.
Sözüm vardır sevgilimə deməyə,
Arzunuzu siz söyləyin yağışa.

Yaz yağışı ötəridi, anidi,
Yerə düşsə tez quruyar, anidi.
Yağışlar da torpağın bir canıdı,
Arzunuzu siz söyləyin yağışa.

Şimşək sanki göy üzünün əsəbi,
Gur yağış da təbiətin tələbi.
Xeyir olsun yağışların qədəmi,
Arzunuzu siz söyləyin yağışa.

Yağış yağsa sevgililər sevinir,
İxtiyarlar əyniqalın geyinir,
Qoca nənəm elə yenə deyinir,
Arzunuzu siz söyləyin yağışa.

Göy üzündən çiləyəndə gur yağış,
Uca Tanrı edib bizə xoş alqış.
Bu da bir taledi, bu da bir naxış,
Arzunuzu siz söyləyin yağışa.

## ÖZÜ DƏ, SÖZÜ DƏ YALANDI ONUN

Üzündə təbəssüm, içəri saxta,
Sanki ürəyini vurubdu şaxta,
Xeyir əməlləri qalıb nə vaxta,
Özü də, sözü də yalandı onun.

*Nəqarət:*
Min sözü, min üzü var zurnaçının,
İnsafı yox imiş heç halvaçının,
Falında yalan yox bir qaraçının,
Gözü də, üzü də yalandı bunun.

Yalan ayaq tutur, yerimir ancaq,
Nə insanlıq var, nə də qanacaq,
Ömrünün sonu da yalan olacaq,
Ləpiri, izi də yalan olacaq.

Yalançı, hamıya hey olur yalan,
Yalanın yolları bağlı, dar adaln,
Yalançı palanın altında qalan
Dünya da onun tək yalandı, yalan!
*03.05.2002*

## XƏYALLARIM

Xəyallarda hamı xoşbəxt, firavan,
Narahatdı, xoş yuxudan oyanan,
Arzularım zınqırovlu bir karvan,
Xoş xəyalda heç olmayır bədbinlik,
Xəyallarım ümidlərə təskinlik.

Xəyallarım tez-tez edir səyahət,
Bu yollarda sənlə olur məhəbbət,
Sevdiciyim məni edir müşayiət,

Xoş xəyalda heç olmayır bədbinlik,
Xəyallarım ümidlərə təskinlik.

Mürgülüyüb xəyallara dalıram,
Öz-özümlə neçə tənha qalıram,
Ürəyimdə zəfər marşı çalıram
Xoş xəyalda heç olmayır bədbinlik.
Xəyallarım ümidlərə təskinlik.

Xəyallarla gülüşürəm səninlə,
Eşq yolunda döyüşürəm səninlə,
Gizli-gizli öpüşürəm səninlə,
Xoş xəyalda heç olmayır bədbinlik
Xəyallarım ümidlərə təskinlik.

Xəyalların ağuşunda qalanda,
Yol çəkən bu gözlər tənha olanda,
Vüqar Əhməd yenə dərdli olanda,
Xoş xəyalda heç olmayır bədbinlik
Xəyallarım ümidlərə təskinlik.

**EŞQ BAĞINDA**

İlham gəlir, qələm coşur, eşq bağında,
Arzularım hey çağlayır, eşq bağında.

Nəğmə yazdım, şer dedim, eşq bağında,
Yorulmadım, usammadım, eşq bağında.

Xəyal oldum, ümid kimi, eşq bağında,
Mən sevindim, həmdə sevdim, eşq bağında.

Nəğməm mənim, ey yar, eşq bağıdır,
Vüqar yazdı, vəsf elədi, eşq bağında.

## YAŞAYA BİLMİRƏM

Bir – birinə saldıq biz meyli, mehri,
Məni bihuş etdi səsinin sehri,
Bu eşq əbədidir, deyil ötəri,
Yaşaya bilmərəm, mən səndən ayrı.

Küsüb barışmağın da var öz ləzzəti,
Dərd – sər bölüşürük gizlin, xəlvəti,
Ya rəbb, daimi et bu məhəbbəti,
Yaşaya bilmərəm, mən səndən ayrı.

Alın yazım yox, yazılarımız,
Bir oldu, bir öldü arzularımız,
Tən yerə böləndü ruzularımız,
Yaşaya bilmərəm, mən səndən ayrı.

Elçilər göndərdim, oldun adaxlım,
İl ötdü səsinlə yuxudan qalxdım,
Sənə özümdən də mən uca baxdım,
Yaşaya bilmərəm, mən səndən ayrı.

Səni vəsf eləyir nəğməli sözüm,
Yüz gözəl görsəm də səndədir gözüm,
İstərəm cahanı səninlə gəzim,
Yaşaya bilmərəm mən səndən ayrı.

Mənim üryim də artıq sənindir,
Mənim kədərim sənin qəmindir,
Səni sevirəmsə dünya mənimdir,
Yaşaya bilmərəm mən səndən ayrı.

Bir vaxt ayıracaq bizi də ölüm,
Səni səsləyəcək ruh olan könlüm,
Ruhlar görüşəndə yenə sən mənim,
Yaşaya bilmərəm mən səndən ayrı.

Biz qəlb sındırmarıq, ancaq tikərik,
Allahım sevəni biz də sevərik,
Cənnətdə əbədi biz görüşəcəyik,
Yaşaya bilmərəm mən səndən ayrı.

## MƏNƏM, MƏN

Rəbbin aciz bəndəsi,
Uzun illər xəstəsi,
Kimsəsizlər kimsəsi,
Mənəm, mən, mənəm, mən.

Nəğmə sözü, bəstəsi,
Sevdim mən də bir kəsi,
Qəm, kədər şikəstəsi,
Mənəm, mən, mənəm, mən.

Heç paxıllıq bilməyən,
Öz sözündən dönməyən,
İlhamı da sönməyən,
Mənəm, mən, mənəm, mən.

Boş-boşuna gülməyən,
Aqil sözü dinləyən,
Torpaq üçün inləyən,
Mənəm, mən, mənəm, mən.

Sadə gördüm özümü,
Xeyrə tutdum sözümü,
Görsəz əgər dözümü,
Mənəm, mən, mənəm, mən.

Yaxşılıqdır hər peşəm,
Sərgərdanam, dərvişəm,

Haram yeməz bir dişəm,
Mənəm, mən, mənəm, mən.

Məhəbbət sultanıyam,
Şöhrətliyəm, şanlıyam,
Sənətin xaqanıyam,
Mənəm, mən, mənəm, mən.
*11.12.2002*

## İSTƏDİM

Özümə Allahdan hər nə istədim,
Oldu da, olmadı yenə küsmədim,
Dostu təriflədim, pisi pislədim,
Səni özümdən də mən çox istədim.

Sənsiz bir qapını açıb döymədim,
Özümü çəkmədim, dartıb öymədim,
Səni danlamadım, səni söymədim,
Səni özümdən də mən çox istədim.

Vəfa görməyəndə yanıb göynədim,
Əynimə dar gəldi iri köynəyim,
Bilirəm, tənhayam, sənsən köməyim,
Səni özümdən də mən çox istədim.

Hərdəmxəyal olma, etibarlı ol,
Min dəfə söylədim, mən sənə min yol,
Taleyimizdə var işıqlı bir yol,
Səni özümdən də mən çox istədim.
*10.12.2002*

**BAĞIŞLA**

Günahımı bəlkə yuyum yağışla,
Etiraf edirəm məsum baxışla,
Gərək üzr istəyəm sözlə, çıxışla,
Bağışla sən günahımı bağışla.

Bica yerə dəymişəmsə xətrinə,
Ətrin hopub şerimin hər sətrinə,
Bağışla sən məhəbbətin xətrinə,
Bağışla sən, günahımı bağışla.

O düşməndi düşməniylə barışmaz,
Kin saxlama sevənlərə yaraşmaz,
Ətlə dırnaq ayırsan da ayrılmaz,
Bağışla sən, günahımı bağışla.

Bağışlayan, əhf edəndi Allahım,
Bağışla sən, xoş açılsın sabahım,
Göydə Allah, yerdə sənsən pənahım,
Bağışla sən, günahımı bağışla.

Əvvəlki tək gülümsə gəl, üzümə,
«Can» - deyərəm bir cavab ver sözümə,
Hərarətlə, sevgiylə bax gözümə,
Bağışla sən, günahımı, bağışla.

Niyə görə ayrılığı dərd edək,
Keşkə yenə büsələrə qərq edək,
Sayımızı biz iki yox, dörd edək,
Bağışla sən, günahımı bağışla.

Bağışlanmaz səhvim varsa, demərəm,
Xəcalətdən mən sağ ikən ölərəm,
Bilirsən ki, günahım az, bir kərəm,
Bağışla sən, günahımı bağışla.

Sevirsənsə qızmağın da tez soyar,
Sevişənlər bir-birinə göz qoyar,
Mən bilirdim eşqimizə göz dəyər,
Bağışla sən, günahımı bağışla.

**PIÇILTIYLA MƏN**
*(nəğmə)*

Göyərçin əlləri dəydi əlimə
Necə həsrət idim qönçə gülümə,
Bir kəlmə söz gəldi o an dilimə,
«Sevirəm» söylədim pıçıltıyla mən.

Necə yaraşırsan doğma elinə
Tərif söyləmişəm sənin şəninə
Anam da möhtacdır sən tək gəlinə
«Sevirəm» söylədim pıçıltıyla mən.

*Nəqarat*
Cadugər gözündən ovsunlanmışam,
Səsinin sehrindən bihuş olmuşam,
Yurdsuz, çörəksiz, susuz qalmışam,
Sənin izlərinlə qidalanmışam.

Sən görməzsən məndən heç vaxt xəyanət,
Eşqimizə vardır məndə sədaqət,
Birdən sən söylədin:-ay Vüqar Əhməd
«Sevirəm» söylədin, pıçıltıyla sən.

## YAZILDI

Kövrək idim,  hər söz mənə dəyərdi,
Dərdim- sərim qamətimi əyərdi,
Sanırdım ki, keçən günüm hədərdi,
İndi bildim, o günlərim qızıldı,
Pis-yaxşısa taleyimə yazıldı.

Səadətmiş qohum-qardaş sağ ola,
Xoşbəxt odur bəxti, günü ağ ola.
Vücudumun mərəzləri sağala,
İndi bizim hər dəqiqə qızıldı,
Nəğmələrim sətirlərə yazıldı.

Zəka vardır, ruzi olsa nə dərdim,
Pis günlərdən mən birtəhər ötərdim,
Əlacsıza ürəkdən əl tutardım,
Səadətim nə gülüm, nə qızıldı,
Mənim bəxtim bu alnıma yazıldı.

Mən biləni biləydi kaş bilənlər,
Mən çəkəni çəkməyə dərd çəkənlər,
Öldüm Allah, xoşbəxt imiş ölənlər,
İndi bildim qayğısızlıq qızıldı,
Vüqar Əhməd bu tarixə yazıldı.

## BİLİRLƏR

Becid-becid uçub gedən xəyallar,
Keçdiyim o günləri varaqlar,
Kimin üçün bu dünyada maraq var,
Arzuları çin olanlar bilirlər.

Deyirlər ki, bəxtinizi sınayın,
Bəxti Allah yazır, vallah inanın,
Min bir şirin ləzzəti var dünyanın
Arzuları çin olanlar bilirlər.

Nə yaxşı ki, məhəbbət var cahanda,
Sevənlərin gözlərinə baxanda,
Bu gözlərdən ildırımlar çaxanda,
Arzuları çin olanlar bilirlər.

Bu dünyanın göz yaşları silinmir,
Bədbəxti də, xoşbəxti də bilinmir,
Xoş günləri bol olanlar deyinmir,
Arzuları çin olanlar bilirlər.

**YALANDI**

Nə xanlara qalıb, nə də bəylərə
Fələk istəyəndə baxmır səylərə
Arzular çin olur, uçur göylərə,
Dünya yalan deyil, dillər yalandı,
Mənasız yaşanan illər yalandı

Hər kəsin içində öz dünyası var,
Qələm ustadının söz dünyası var,
Sevən aşiqlərin iz dünyası var,
Dünya yalan deyil, sözlər yalandı,
Baxışlar yalandı, gözlər yalandı.

Yaşamağa yer, yataq veribdir,
Məzarda darısqal otaq veribdir
Bizi bu dünyaya qonaq veribdir
Dünya yalan deyil, əməl yalandır,
Nəsillər, əcdadlar, təməl yalandı.

Yalandı sağlıqlar, deyilən sözlər
Bu təmtəraqı bilirlər əzbər
Yalanlar qəlblərdə salıbdır lövbər,
Dünya yalan deyil, qalandı dünya,
Bir yandan boşalıb dolandı dünya.

# POEMA

**MƏHƏBBƏT POEMASI**
*(Su problemləri sahəsində dünya şöhrəti qazanmış mərhum professor İsmayıl Babayevin ruhuna ithaf edirəm)*

Allahın eşqindən biz yaranmışıq,
Yaşayıb sevgini biz qazanmışıq.
İlk öncə yarandı ana sevgisi,
Ana qucağının odu, istisi.
Ataya məhəbbət bir başqa aləm,
Atalı ocaqda olmaz kədər, qəm.
Bacı məhəbbəti, qardaş istəyi,
Dünyadı-dayının, bir - "can" deməyi.
Xalanın, Bibinin var məhəbbəti,
Babanın, Əminin var itaəti.
Anamın anası müqəddəs, əziz,
Nənəmin nağılı, söhbəti ləziz.
Yollandım məktəbə - doğmadır məktəb,
Yarandı bizlərdə elmə məhəbbət.
Burada yarandı dosta sevgimiz,
Böyük bir ailəydi bizim sinfimiz.
Əbədi xatirə məktəb illəri,
Müəllimə verdik gözəl gülləri.
Yaxşı müəllimə vardı sevgimiz,
Onun sayəsində oldu elmimiz.
Daha səlis oldu ana dilimiz.
Şer söyləyəndə coşdu qəlbimiz.
Məktəbdə qazandıq ilk məhəbbəti,
Yarandı dostluğun ilk sədaqəti.
Bir qızı sevirdi beşi, on beşi,
Özünü sanırdı hər uşaq kişi.
Oyun oynayanda tutsaq əl-ələ,
Canlara düşərdi gizlin vəlvələ.
Uçunardı bədən, coşardı xəyal,
Həmin gün biz susub olduq sanki lal.
Eşqin odu onda düşdü ürəyə.
Guya bölünmüşdü qızlar hərəyə.

Necə qayğısızdıq, necə qayğısız,
Sanırdıq ömrümüz keçir ağrısız.
Taleyin yolları daşlı-kəsəkli,
Arzuya gedən yol daim küləkli.
Məktəbi bitirdik, ayrılır yollar,
Qarşıda çox çətin, əzablı yol var.
Hər kəsin bir yolu, var bir qisməti.
İnsan çörək tapır çəksə zəhməti.
Ata-analılar firavan idi,
Yetimlər arxasız bir insan idi.
"Dayılı" cavanlar hökmüran idi.
Yetimlər həm yanan, həm yaman idi.
Atalı-analı "yetimlər" də var.
Atılmış uşağın gözündə qəm var.
Atalar, analar - kefdə, damağda,
Pəncərə önündə - nəm var yanaqda.
Ana məhəbbəti duya bilməyir,
Nə qədər ağlasa doya bilməyir.
Ay Allah, nə olar qoyma kimsəni,
Sən yetim eyləmə heç bir körpəni.
Sahibsiz itin də hörməti yoxdur,
Daş-kəsək atırlar, yal atan yoxdur.
Sahibsiz məzarda qanqallar bitir,
Mərmər məzarlarda saçır gül ətir.
Dünyanın sahibi uca Allahım,
Allahın eşqiylə xoşdur sabahım.
Dağlar nə gözəldi, gül də, çəmən də,
Necə gözəl olur göldə çiməndə.
Qumlu sahillərin var hərarəti,
Dalğanın, ləpənin var cəsarəti.
Xan Araz, Dəli Kür axanda şır-şır,
Çoban tütək çalır gələndə naxır.
Göylərdən yağsada narın yağışlar,
Səssiz söhbət edir sevən baxışlar.
Qorxulu nağıllar qışda gözəldi,
Qar yağanda uşaq daha dəcəldi.

Vətənə məhəbbət yaranır burdan,
Vətəni sevənlər - qurub yaradan,
Vətən namusudur ən əziz öncə,
Dünya şöhrətlidir həm Bakı, Gəncə.
Vətən məhəbbəti necə müqəddəs,
Onu sevməlidir hər insan, hər kəs.
Biz Odlar oğluyuq, oda bağlıyıq,
Bu gün hər birimiz qarabağlıyıq.
Demirəm başlara qara bağlayaq,
Gecə-gündüz inildəyək, ağlayaq.
Sözüm odur, biz Vətəndən doymayaq,
Düşmən qabağında biz qul olmayaq.
Çəkərək qılıncı hücuma keçək,
Yağı düşmənləri qan-qəltan edək.
Nə qədər sülh deyib yalmanacağıq,
Xaçpərəst əbləhdən nə udacağıq.
Qalx ayağa! Ey millətim irəli,
Allahü, Məhəmməd, Əli-deməli
Ən böyük eşqimiz, sənədir ya Rəbb,
Arzuma sən çatdır, sevinsin qoy qəlb.
Onsuz da qəlbə həqiqətindi,
Qarabağ qurbanı xəyanətindi,
Əllərim duada - ibadətimdi,
Qələbəm - Vətənə məhəbbətimdi.
* * *
Deməyin mətləbdən düşmüşəm uzaq,
Gözəl məhəbbətdən min dastan yazaq,
Oğlan yetişəndə həddi-buluğa,
Gərək getməlidir hərbi qulluğa,
Pullunun uşağı olur "kamsavat",
"Kamsavat", ağıldan həm də kəmsavad.
Ömürlük bu oğul xəcalətdədir,
Elində-obada cəhalətdədir.
Vətəni qoruyan var oğullarım,
Onlardan tük salır bil, yağılarım.
Qızlar da çox sevir igidi, mərdi,

Qəhrəman oğullar tək çəkir dərdi.
* * *
Ən ali duyğudu sevib-sevilmək,
Ən böyük səyahət yarla gəzişmək.
Ən böyük ziarət, yarını görmək,
Arzunu, istəyi onunla bölmək.
İnsanı yaşadan məhəbbətidir,
Sevdiyi bir kəsə itaətidir
Məhəbbətim bilməm yuxu, röyadır,
Məhəbbətim başqa yeni dünyadır.
Gözüm qalıb sevgilimin gözündə,
Bir dünya var onun hər bir sözündə.
Deməyin ki, sevənlər gileylidir,
Sevənlər həm Məcnun, həm də Leylidir.
Böyük şairimiz Əliağa Vahid,
Sevgini vəsf edib bizlər də şahid: -
"Sevgilim, eşq olmasa varlıq bütün əfsanədir,
Eşqdən məhrum olan insanlığa biganədir".
Dünyanın əşrəfi o gözəl insan,
Əgər sevməyirsə sayılmır insan.
Vətənə xəyanət - ən böyük günah,
Yarına xəyanət - o da bir günah.
Xəyanət heç zaman bağışlanmayır,
Xəyanətkar qanmaz bunu qanmayır.
Cahil insan eşqi duymur, anmayır,
Qəlbi daşlar eşq odunda yanmayır.
Bir dərmandı, bir məlhəmdi məhəbbət,
Daim bizə bir həmdəmdi məhəbbət.
Hər nə varsa məhəbbətdən yaranır
Yarananlar məhəbbətdən yaranır.
Dünyada var sevənlərin öz səsi,
Hər kəs sevir qəlbə yatan bir kəsi.
Bir gün görsən sən sevdiyin bir kəsi
Darıxacaq səhərisi, ertəsi.
Elçi göndər, ataları sevindir,
Analara toy libası geyindir.

Çalınanda qız evində "Vağzalı".
Qız anası, sevincindən yox halı.
Gözlərindən sevinc yaşı axırdı.
Qız atası çox nigaran baxırdı.
Balasının min cür çəkib nazını,
Çoxu verib özü yeyib azını.
Başqa evə verir əziz qızını.
Əri çəkər, onun işvə-nazını?
Suallarla düşündü qız atası,
Gözləyərik, başqa yoxdur çarası.
Xoşbəxt olsa onun qızı, balası,
Xoşbəxt olar həm atası, balası.
Oğlan evi sevinirdi əməlli,
Gəlin gəlib mübarəkdir qədəmi.
Nəvə oldu sevindilər babalar,
Bayram etdi sanki ellər-obalar.
Sevinirdi, sevinirdi nənələr,
Övladda nəvədi, varda dəvələr.
Bir məhəbbət övlad üçün bölündü,
Ata-ona övladım var öyündü.
Ən böyük məhəbbət vermiş övlada,
Heç bir ləzzət çatmaz ondaki dada.
Evdən gəldi şirin körpə nəfəsi,
Artdı bu dünyaya yaşam həvəsi.
* * *
Ölüyə var, diriyə var məhəbbət,
Saf sevgilər sayılmayır qəbahət
Mərhumların itgiləri yandırır,
Yaxşıları qoca dünya tez udur.
Təskinlik bu - Allah bilən məsləhət,
Ölüyə də vardır bizdə məhəbbət,
Sağlığında bilməsək də qədrini,
Ölüb getsə əziz tutduq xətrini
Xatirə gecəsi keçiririk biz,
Çoxlu yaxşıları itiririk biz,
Pis-yaxşı insanlar qoyurlar bir iz.

Sonumuz məzarda darısqal otaq,
Deyirəm a dostlar, mehriban olaq,
Dostlar deməyin ki, unutdum sizi,
Dostlarım sevirəm həm də mən sizi.
Dostlarım arxadı, dostlar dayaqdı,
Yaxşı dost üçün hər vaxt oyaqdı.
Ən böyük ərməğan dost sədaqəti,
Əbədi bir sevgidi dost məhəbbəti,
* * *
Bizdə vardır bu dünyaya məhəbbət,
Çin olacaq bir röyaya məhəbbət.
Hifz eləyən bir duaya məhəbbət.
Quran səsli bir anaya məhəbbət,
Sevgilimə bir əbədi məhəbbət,
Doğma nədir: - hamı dedi məhəbbət.
Bacı, qardaş, balalardı məhəbbət.
Ən müqəddəs analardı məhəbbət.
Dostlarımız, qohumlardı məhəbbət,
Gül-çiçəkli bir bahardı məhəbbət.
İlk öncədi, axır sondu məhəbbət.
Gözəl Bakım, Abşerondu məhəbbət.
Qarabağım, Azərbaycan məhəbbət,
Şirin səslə desələr - "can" məhəbbət.
Ərdəbilim, Təbriz, Zəncan məhəbbət,
Tapdı məni görən haçan məhəbbət,
Bir uşağdım dərsdən qaçan məhəbbət,
İnsanları öpüb-qucan məhəbbət,
Nəğmələrə vardır xalqda məhəbbət,
Məhəbbətə vardır məndə məhəbbət,
Vüqar Əhməd imzasına var istək,
Bu şeri də yaradandır məhəbbət.

# VÜQAR ƏHMƏDƏ HƏSR OLUNMUŞ POEMA VƏ ŞERLƏR

## VÜQAR ƏHMƏD HAQQINDA POEMA

Azərbaycan torpağında bir nəğməkar şair yaşar.
Onun şanı, həm şöhrəti bütün sərhədləri aşar.
Neçə-neçə mahnılara bəzək olub sözü ilə,
Əldə qələm, sinədə söz səhər açıb gözü ilə.
Doğulmuşdu o paytaxtda doğma Bakı şəhərində
Göz açmışdı bu dünyaya nurlu bir yaz səhərində.
Qeyri-adi bu uşaqda Peyğəmbərin xalı vardı.
Püşkatmayla ad qoyuldu, xala deyən ad Vüqardı.
Utancaqlıq pərdəsilə başqalardan seçilirdi.
Böyüklərin hüzurunda səcdə edir, kiçilirdi.
Ata-ana qibləsiydi, hələ kiçik bir oğlandı,
Kiçik yaşdan dua etdi, Allahına o bağlandı.
Balaları Sultan, Əzim bu nəvəyə ustad oldu.
Babalardan aldığı dərs ömrü boyu bir dad oldu.
Tez-tez onun təmiz qəlbi saf arzuyla lap dolurdu,
Qəribəydi, az keçirdi arzuları çin olurdu.
Belə təmiz niyyətlərlə ayaq açdı o məktəbə,
O məktəbdə bu on ildə vaqif oldu çox mətləbə.
Elmlərə qarışaraq musiqiyə yoğrulurdu,
Görürdülər eli üçün bir nəğməkar doğulurdu.
Ali təhsil illərində xeyli uğurlar o etdi,
Fərqlənmə ilə təhsil aldı, sonra kəndə dərsə getdi.
Üç il kənddə o dərs dedi, ayrı düşdü tam şəhərdən.
Dağ döşündə at minərdi, bəzən düşərdi yəhərdən.
Dağ-dərənin gözəlliyi onun qəlbinə dolurdu,
Sətirlərə çevrilərək nəğmə, mahnı, şer olurdu.
Ödəyərək öz borcunu o qayıtdı, döndü geri,
Yaxınlara, doğmalara yükü oldu mahnı, şeri.
Yaranırdı, oyanırdı gənc Vüqarın öz dünyası,
Yayılırdı doğma yurda bu şairin söz dünyası.
Qucağını açdı ona mavi ekran, radio da,
Sədaqətlə xidmət edir bu gün xalqına o da.

O yenidən tanıtdırmış millətinə bir nəfəri,
Ondan layiq qiymət almış Seyid Cəfər Pişəvəri.
Neçə-neçə mükafatı o qazandı işi ilə,
Yeni nəfəs duyulurdu Vüqar Əhməd gəlişilə.
Sadəliyi bir xoşbəxtlik ona məxsus özəllikdir.
Axtarmayır böyük ad-san bu sadəlik, gözəllikdir.
O təbiət vurğunudur, qane olur çoxa, aza.
Bir də sevir insanları, vurulmuşdur güllü-yaza.
O təpədən dırnağadək musiqidir, şirin baldır.
Əlində çalğı aləti görməzsiniz, susur, laldır.
Bəxtiyarla, Məmməd Araz bu istedadada şahiddir,
Bu istedadın idealı şair Əliağa Vahiddir.
O sevməyir rəsmiyyəti-getdiyi yer toy-nişandır,
Üstün tutur məclisləri, burda tapan saf insandır.
"Yer üzünün anaları olub mənə "Anam mənim",
Ana üzü işıqlısa tez yox olur duman, çənim".
O, ağaran saçlarında müdrikliyə qovuşubdur.
Qara saça dən düşübsə o yaşayır vuruşubdur.
O, daşlara tuş da olub, lakin dözüb-səbr edibdir.
Onu sevən, sevməyənlə olub birgə, yol gedibdir.
İlham alıb insanlardan, vətənindən, təbiətdən,
Torpağına, övladına, anasına məhəbbətdən.
Bu insanın təqdimatı Vüqar Əhmədin özüdür.
Şirin-şəkər nəğmələrdə gül ətirli hər sözüdür.
Eh, nə deyim Vüqar Əhməd,
Bu dünyadan kim razıdır?
Dözümlü ol Vüqar Əhməd,
Kimlər səndən narazıdır.
İnsanlığa toz hörənlər
Yekə qarın tuz gödənlər,
Dala baxıb toz görənlər,
Bunlar səndən narazıdır.
Ana südü dadamayanlar,
Layla ilə yatmayanlar,
Heç imdada çatmayanlar,

Onlar səndən narazıdır.
Musiqini heç qanmayan,
Kərəm olub heç yanmayan,
Özünü insan sanmayan,
Nolsun səndən narazıdır
Sözlər var ki, üşündürür
Sən deyənlər düşündürür,
Bir sual da düşündürür,
Nolsun onlar narazıdır.
Beləlәri bil azıdır,
Böyük xalqım lap razıdır.
Yaşayırsan öz ömrünü, ömrün bizə doğma, əziz,
Sənin ömrün işıq salır neçə ömrə necə təmiz,
Yazdıqların vətəninə, torpağına sədaqətdir.
Belə yazmaq. Belə qalmaq vallah böyük səadətdir.
Vüqar Əhməd, söz dünyanda necəməna, necə kamal,
Səni qucur, səni sevən qardaşın Mustafa Camal.

***Mustafa Camal*** *(Ramazanov Mustafa Camal oğlu)*
*Zaqatala rayonu , Muxax kəndi*
*20.04.2003*

**AZƏRBAYCAN DANIŞIR**
*(V.Əhmədə ithaf edirəm)*

İndi bir başqa zamandır bütün insan danışır,
Varlığın car eyləyir aləmi imkan danışır,
Hərə öz tarixini saya gələn dövrlərin,
Çox təfaxurla edir aləmə elan danışır.
Mən o xalqam ki, mənim
Yurdum alovlar yeridir,
Yoğrulub torpağım odla, o alovdan danışır.
Mən Koroğlu yetirib zalimi məhv etmişəm,
Yeri gəlsə qılıncım düşmənə qan-qan danışır.
Qəhrəman Babəkimin şöhrəti afaqı tutub,
Oxusan tariximin hər vərəqi şan danışır
Nəbimin adı gələndə yenə bəylər üşüyür,
O, Qoçaqdan hələ də Xan ilə Sultan danışır.
Mən o xalqam ki, Füzuli mənim övladım olub,
Bunu tək mən demirəm gör neçə divan danışır.
Sığmayan hər iki dünyaya Nəsimi də mənəm,
İnsanı haqq bilir, o həqqidə insan danışır.
Mən Nizami kimi eycaz eləyənlər yiyəsiyəm,
Xor baxanlar hələ bu haqq sözə böhtan danışır.
Mən o xalqam ki, mənim Vahidimin yoxdur tayı,
Çox dərin sözləri o, sadəcə asan danışır.
Mən o xalqam ki, cahan əhli sevir musiqimi,
Məndə Şövkətlə, Sara Cabbar ilə Xan danışır.
Dəf ilə taru kəman Saz ilə Söz ilə balaban,
Nağara, zurna, tütək sevimli qarmon danışar.
Bu nişanlar ki, dedün vəsfinə Zahid bildik,
Bu şirin dillə bizə Azərbaycan dalışır,
Bu şirin sözlə bizə Vüqar Əhməd danışır.
***Tehran***
***İbrahim Zahid Xəzayeri***

## MƏNZUM MƏKTUB

Vüqar Əhməd, bax boyuna qızların,
Bahəm gedək toyuna qızların.
Qızlar ələ götürəndə sazların,
Vüqar Əhmədin qoy adı gəlsin.
Ürəyim dincəlsin, ruhum dincəlsin
Vüqarın sözləri çox Vüqarlıdır.
Bakı gözəlləri Qarabağlıdır,
Eli, soyu bir Vüqara bağlıdır.
Yaz sözünü Azərbaycan dinləsin.
Ürəyim dincəlsin, ruhum dincəlsin.
Qızlar oxuyanda deyirlər: - Vüqar,
Şad olsun Bakıda bütün şairlər
Müddətdir gözlərim sənə intizar.
Yaz sözünü bizə el-elə gəlsin.

## SÖZ DÜNYAM VAR

Bu dünyada sevgi adlı bir dünyam var,
Öz dünyası var hər kəsin, öz dünyam var.

Çin olsa da, olmasa da, necə şirin,
Ayda-ildə, az gördüyüm bir röyam var.

Busə dadı şirin deyil, şəhvətlidi,
Xəyalların ağuşunda öz xülyam var.

Dostun dosta xəyanəti dəhşətlidi,
Mənim dostluq dünyasında öz dünyam var.

Əfsuslar ki, bu gün şer dünyasında
Nə Füzuli, nə Vahid var, nə Xəyyam var.

Şükr edirəm Allahıma, nə yaxşı ki,
Ululardan miras qalan bir əyyam var.

Öz dünyası var hər kəsin dünyamızda,
Vüqar Əhməd gör nə deyir: söz dünyam var.

## MÜNDƏRİCAT

Ön söz. Vüqar Əhmədin öz deyim və yazı dili var ........3
Naşirdən. İlhamım gələndə, İlham gələndə… ................4
İzim qalacaq və ya otaylı bu taylı Azərbaycanın Vüqarı olan V.Əhmədin Azərbaycan poeziyasındakı söz qalasına bir baxış ..................................................6

## İLHAM GƏLDİ, İLHAM ALDI BU EL-OBA

İlhamım gələndə ........................................................9
İlham gəldi, İlham aldı bu el-oba ................................10
İlham ..........................................................................11
Babadır .......................................................................12
Mənim qəlbimdə .........................................................13
Vüqarlı rəhbərim .........................................................14

## BİLMƏM ÖMRÜN SONU, YA DAVAMIDIR…

Allah adamı ................................................................16
Ürəyim ........................................................................18
Qocaman .....................................................................19
Həqiqət .......................................................................21
Yaşın mübarək! ...........................................................23
Ay ustad ......................................................................24
Kamança çalınanda ......................................................25
Müğamımız fəxr eyləyir Tələtlə ...................................27
Sənətin də kamil, adın da Kamil ..................................28
Arif Məmmədov – 50 ..................................................29
Yağışlar .......................................................................30
Kirvələr .......................................................................31
Apardı dalğalar mənim balamı ....................................32
A Knyaz ......................................................................33
İzim qalacaq ...............................................................35
Əhsən… ......................................................................36

Ay Eltac bala ..........36
Sevməyən yox Gövhəri ..........37
50 yaşın mübarək! ..........38
Arzularım çoxdur hələ ..........40
Hüseyn, Alma-bir alma ..........40
Kimə neyləmişəm, nədir günahım? ..........42

## MƏN ƏYİLMƏZ BİR DAĞAM

Azərbaycan ..........45
Qarabağdır ..........46
Yaşamağa nə var ki ..........47
Əlifbanı öyrəndim ..........47
Min alqış ..........49
Vallah ..........50
Canım sağ olsun ..........51
Neyləyim? ..........51
Şən gələr ..........52
Hara gedim ..........54
Hər kəsin öz baxışı ..........55
Aşiqəm gözəllərə ..........56
Gənclik himni ..........57
Nabran ..........58
Ruhlar ..........58
Nifrət ..........59
Yalvarım ..........60
Dərdlərimə yananım ..........61
Sənsiz çətindi ..........63
Yuxuda səadət ..........64
Bəxt ağaraydı ..........65
Gözlərimin yağışı ..........66
Novruzum ..........67
Sənsiz, səninləyəm ..........67
Mən dünyayam ..........70
Ay qardaşlar, ay bacılar ..........72

Allaha güvəndik ........................................................73
Tək ........................................................................74
Dünyada ..................................................................75
Göylərin göz yaşları ..................................................76
Şəfasız ....................................................................76
Dayan, sözüm var sənə ..............................................77
Mən bir… ................................................................78
İşin düşər ................................................................80
Dahi Sabir ...............................................................81
Səyahət ...................................................................83
Ömrümüz .................................................................86
Bu gözəlin üzündə ....................................................87
Kimə deyim mən ? ....................................................88
Səni soraqlar ...........................................................90
Yaşadır bizi .............................................................91
Sabah necə olacaq? ..................................................92
Axtardım səni ..........................................................94
Acizəm ...................................................................95
Məni .......................................................................96
Bir olaq ...................................................................96
Mənəm (duet) ..........................................................97
İstədim ...................................................................98
Bağışla ...................................................................99
Görməyə tələsir hamı İzzəti ......................................100
A dostlar! ...............................................................102
Tənhalıq .................................................................103
Mübarək .................................................................104
Qonağam ................................................................106
Sən yanımda olanda ................................................107
Yalan dünya sənə qalsın ...........................................107
Məhəbbət ...............................................................108
Tövbə .....................................................................108
Heyfsilənirəm .........................................................110
Hardadır? ...............................................................111
Dərd yağışı .............................................................112

Səadət hardadır? ............................................................113
Bəsimdi ..............................................................................113
Mən əyilməz bir dağam ....................................................114
Bilmədin .............................................................................115
Məhəbbətimdi ....................................................................116
Gizli  məhəbbətim .............................................................116
Deyə bilmirəm ....................................................................117
Sözündən çıxmaram ...........................................................117
Hayana gedəsən .................................................................118
Mən olmayanda ..................................................................119
Zaval yoxdu sevənlərə .......................................................119
Allahım ..............................................................................120
Bilirəm ki, sevirsən ............................................................121
Gözəl dünyamız .................................................................122
Gülnaz ................................................................................122
Çəkən yoxdur bu dünyanın dərdini ..................................123
Əlacsızam ...........................................................................124
Bilirlər ................................................................................124
Gecələr ...............................................................................125
Buludsuz yağış ...................................................................126
Sevənlərin ..........................................................................127
Göylər necə pərişan ..........................................................127
Eşqim, sevgim, məhəbbətim .............................................128
Ağ dünyam mənim .............................................................129
Xəzri ...................................................................................130
Yağış ...................................................................................130
Özü də, sözü də yalandı onun ...........................................132
Xəyallarım ..........................................................................133
Eşq bağında ........................................................................133
Yaşaya bilmirəm ................................................................134
Mənəm, mən ......................................................................135
İstədim ...............................................................................136
Bağışla ...............................................................................137
Pıçıltıyla mən .....................................................................138
Yazıldı ................................................................................139

Bilirlər ........................................................................139
Yalandı ........................................................................140

## POEMA

Məhəbbət poeması ......................................................142

## VÜQAR ƏHMƏDƏ HƏSR OLUNMUŞ POEMA VƏ ŞERLƏR

Vüqar Əhməd haqqında poema ...................................149
Azərbaycan danışır ......................................................152
Mənzum məktub ...........................................................153
Söz dünyam var ............................................................154

*VÜQAR ƏHMƏD*

# *«İLHAMIM GƏLƏNDƏ...»*

**Bədii redaktor:** *Elçin Qəniyev*

**Kompüter tərtibatçısı və dizayner:** *İradə Əhmədova*

**Korrektor:** *Namiq Osmanov*

**Texniki redaktor:** *Fariq Tofiqoğlu*

Yığılmağa verilmişdir: 01.09.2003
Çapa imzalanmışdır: 24.11.2003
Tiraj 500; şərti çap vərəqi 10.
«Min bir mahnı» şirkətinin mətbəəsində
çap olunmuşdur